# STRATEJİ TƏHLİL, PLANLAŞDIRMA VƏ KADRLARIN İDARƏOLUNMASI SAHƏSİ ÜZRƏ 2010-CU İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

Strateji təhlil, planlaşdırma və kadrların idarə olunması şöbəsi öz fəaliyyətində Azərbaycan Respublikası qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, digər normativ-hüquqi aktları, təhsil nazirinin əmr və sərəncamlarını və şöbənin Əsasnaməsini rəhbər tutaraq təhsil strategiyasını müəyyənləşdirir, təhsil siyasətinin və prioritetlərinin formalaşdırılması üzrə təkliflər hazırlayır, təhsil sisteminin səmərəliliyi ilə bağlı məlumatları təhlil edir, bütün struktur bölmələrin və təhsil müəssisələrinin fəaliyyətinin strateji və fəaliyyət planlarının hazırlanmasında iştirak edir, təhsili idarəetmə orqanları və təhsil müəssisələri tərəfindən mövcud qanunvericiliyin yerinə yetirilməsinə təşkilati-metodik köməyi həyata keçirir.

Şöbənin hər bir əməkdaşına müvafiq sahələrin inkişaf etdirilməsi haqqında tapşırıqlar verilmiş, şöbənin Əsasnaməsinə müvafiq olaraq həmin tapşırıqların lazımi səviyyədə yerinə yetirilməsi, sənədlərin, hesabatların hazırlanması və icrasının təmin olunması, zəruri məlumatların toplanması üçün bütün imkanlardan səmərəli istifadə olunmuşdur.

Şöbə əsas fəaliyyət dairəsinə, həmçinin Nazirliyin 3 illik Strateji Planına (2010-2012-ci illər) əsaslanaraq, hesabat dövründə strateji təhlil və planlaşdırmanın müasir metodlarından istifadə edərək, idarəetmə mexanizminin təkmilləşdirilməsi sahəsində yerli təhsili idarəetmə orqanlarının fəaliyyətinin istiqamətləndirilməsi, eləcə də, Nazirliyin kadr siyasəti və strategiyası üzrə funksiyaların həyata keçirilməsi, davamlı inkişaf naminə təhsil siyasəti və strategiyasının, həmçinin, QHT və beynəlxalq təşkilatların layihələrinin həyata keçirilməsi, aparılan təhlillərin nəticələrinə əsasən strateji sənədlərin, hesabatların, islahat layihələrinin hazırlanmasında fəal iştirak etmişdir. Qeyd olunan sahələr üzrə həyata keçirilən tədbirlər və proseslər aşağıda öz əksini tapmışdır.

## I. İl ərzində strateji təhlil, planlaşdırma və idarəetmə sahəsində həyata keçirilən tədbirlər və proseslər.

2010-cu il ərzində şöbə tərəfindən aşağıdakı işlər icra olunmuş, müvafiq proseslər və tədbirlər həyata keçirilmişdir:

**1.** Təhsil sisteminin ayrı-ayrı sahələri üzrə strateji təhlillərin aparılması, müxtəlif struktur bölmələr tərəfindən səmərəli həyata keçirilən işlərin əlaqələndirilməsi, mövcud idarəetmə mexanizminin təkmilləşdirilməsi məqsədilə Təhsil Nazirliyində strateji planlaşdırma mexanizmi tətbiq olunmaqdadır. Buna müvafiq olaraq, strateji planlaşdırma mexanizminin inkişafı istiqamətində işlər davam etdirilmiş, Nazirliyin növbəti 3 illik Strateji Planı (2010-2012-ci illər) hazırlanmış, həmin plan Nazirliyin fəaliyyət planı ilə əlaqələndirilmiş, eləcə də, Strateji Plana daxil edilmiş və Təhsil Nazirliyi tərəfindən hazırlanmış bir sıra məqsədli inkişaf proqramlarına əsaslanan və müvafiq olaraq il ərzində nəzərdə tutulan məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

**2.** Təhsil Nazirliyinin növbəti 3 illik strateji planına müvafiq olaraq, R(Ş)TŞ-lərdə (idarələrdə) strateji planlaşdırma və hesabatvermə prosesinin daha səmərəli icra olunması, həyata keçirilməsi və 2 illik Strateji Planların hazırlanması məqsədilə yerlərdə məsul şəxslər müəyyənləşdirilmişdir.

**3.** Təhsil sektorunda aparılan islahatların əhatə dairəsinin tamlığı və optimallığı, eyni zamanda, dünyada təhsilin inkişaf tendensiyaları barədə məlumatlar toplanmış, həmçinin, Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (2009-2014-cü illər) həyata keçirilməsi məqsədilə "Təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, müəllim peşəsi ilə bağlı reqlamentləşdirici qaydaların yenidən işlənməsi və tətbiqi" alt-komponenti üzrə Dünya Bankının heyəti ilə görüşlər keçirilmiş, müzakirələr aparılmış, eyni zamanda, qeyd olunan illərdə həmin alt-komponent üzrə həyata keçiriləcək tədbirlərin İcra Planı hazırlanmış, həmin plana dair müzakirələr aparılmış və həmin alt-komponentin İcra Planına əsasən cari ilin Yanvar-İyun, İyul-Avqust-Sentyabr və Oktyabr-Noyabr-Dekabr aylarında həyata keçirilən tədbirlər barədə yarımillik və rüblük hesabatlar hazırlanaraq Layihənin Əlaqələndirmə Qrupuna (LƏQ) təqdim edilmişdir.

**4.** 09 yanvar-02 fevral tarixlərində şöbənin əməkdaşı Zöhrab Kəlbəliyev Təhsil Nazirliyinin 07.01.2010-cu il tarixli, 11/06 nömrəli əmrilə ABŞ-ın "Xarici Qonaqlar-Liderlik Proqramı" çərçivəsində "ABŞ-da ali təhsilin idarəolunması" mövzusunda keçirilən layihədə iştirak etmək məqsədilə ABŞ-a ezam olunmuşdur.

**5.**28 yanvar tarixində Təhsil Naziri və şöbə müdirinin yanında görüş keçirilmişdir. Görüşün məqsədi 21-28 fevral tarixində ABŞ-ın Cənubi Konnektikut ştatında və Nyu-York şəhərində "Məktəb Liderliyi" layihəsi üzrə təşkil edilən təlimlərdə iştirak etmək məqsədilə müəyyən göstəricilərə əsasən məktəb direktorları, müavinləri və məktəb müəllimlərinin müəyyənləşdirilməsi olmuşdur.

**5.** 29 yanvar tarixində şöbənin əməkdaşları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Təhsil Nazirliyi üçün keçirdiyi anket sorğusunda iştirak etmişdir.

**6.** Yanvar və dekabr aylarında (ilk altı ay və son altı ay ərzində) "İnsan Hüquqlarının tədrisi" ilə əlaqədar 2009-2010-cu dərs ilində görülən işlər barədə Ombudsman Aparatına hesabat hazırlanıb təqdim edilmişdir.

**7.** Yanvar ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və Nairlər Kabinetinə "Demoqrafiya və Sağlamlıq" sorğusu üzrə, Statistika Komitəsinə isə "Demoqrafiya və əhali sakinliyi" üzrə hesabatlar hazırlanmış təqdim edilmişdir.

**8.** Yanvar ayında "Korrupsiyaya qarşı Mübarizə üzrə Milli Fəaliyyət planı"nın icrası ilə bağlı 2009-cu ilin son altı ayı ərzində görülmüş işlər barədə, iyul ayında isə 2010-cu ilin ilk altı ayı ərzində görülmüş işlər barədə Prezident Aparatının Administrasiyasına və Nazirlər Kabineti Aparatına 27 səhifəlik hesabat hazırlanıb təqdim edilmişdir.

**9.** Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli, 80 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda Təhsil Nazirliyi üzrə nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə cari ilin yanvar və iyul aylarının ilk və son altı ayı ərzində görülmüş işlər barədə məlumat hazırlanmış və İqtisadi İnkişaf Nazirliyinə təqdim edilmişdir.

**10.** "2008-2015–ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planında nəzərdə tutulan tapşırıqların icrasını təmin etmək məqsədilə cari ilin yanvar və iyun aylarında (ildə iki dəfə) Təhsil Nazirliyinin gördüyü işlər barədə məlumat hazırlanmış və Nazirlər Kabinetinə göndərilmişdir.

**11.** 05 fevral tarixində şöbənin əməkdaşları "2009-cu ilin yekunları və 2010-cu ildə qarşıda duran vəzifələr" adlı kollegiya iclasında iştirak etmişlər. Kollegiya iclasında 2009-cu ilin təhsillə bağlı mühüm hadisələrinə dair ümumi statistik məlumatlar, diaqramlar və cədvəllər, eyni zamanda son illərdə təhsilin inkişafı sahəsində əldə edilən nailiyyətlər, təhsil pillələri üzrə həyata keçirilən və 2010-cu ildə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər, ölkədə kurikulum islahatının həyata keçirilməsi, həmçinin şagird nailiyyətlərinin qiymətləndirilməsi *(məktəbdaxili, milli və beynəlxalq qiymətləndirmə)*, 2009-cu ildə ali məktəblərə qəbulun nəticələri, istedadlı uşaqlarla iş, dərslik siyasətinin tətbiqi, kadr təminatı, de-institutlaşma, məktəbdənkənar təhsil, təhsil sisteminin informasiyalaşdırılması, texniki peşə təhsili, orta ixtisas təhsili, ali təhsil, ixtisasartırma təhsili, beynəlxalq əlaqələr və xaricdə təhsil, ali məktəb elmi sahələri ilə bağlı təqdimat xarakterli hesabat verilmişdir.

**6.** 11 fevral tarixində şöbənin təhsil naziri yanında dövlət qulluqçusunun illik xidməti fəaliyyətinin qiymətləndirilməsi və şöbənin 2010-cu il üçün hazırlanmış İş Planının müzakirəsinə dair iclas keçirilmişdir. İclas zamanı nazir şöbənin hər bir işçisi barədə təqdim olunan qiymətləndirmə sənədləri ilə əməkdaşları tanış edərək həmin sənədləri imzalamış, şöbənin əməkdaşları barədə öz fikirlərini bildirmiş, hər bir işçiyə aid müəyyən nöqsan və problemləri, perspektivləri, eyni zamanda, müəyyən işçilərin ixtisas dərəcələrinin artırılması barədə ümumi məlumat vermiş və şöbənin 2010-cu il üçün hazırlanmış İş Planı nəzərdən keçirilərək təsdiq edilmişdir. Sonda nazir tərəfindən şöbənin əməkdaşlarına 2010-cu il ərzində gündəlik fəaliyyətlərinin qeyd olunması məqsədilə "agenda" dəftərini imzalayıb təqdim etmiş və il ərzində görülən işlərin həmin dəftərdə qeyd olunmasını bildirmişdir.

**8.** Təhsil naziri yanında struktur bölmələrin illik xidməti fəaliyyətlərinin qiymətləndirilməsi və struktur bölmələrin 2010-cu il üçün hazırlanmış İş Planlarının müzakirəsinə dair iclaslar tamamlandıqdan sonra həmin planlar nəzərdən keçirilmiş və Nazirliyin 2010-cu il üçün Fəaliyyət Planı şöbə tərəfindən hazırlanmışdır.

**9.** 21-28 fevral tarixlərində şöbənin əməkdaşı Vüqar Əbdülrəhimov Nazirliyin 11 fevral 2010-cu il tarixli 173 nömrəli əmri ilə "Məktəb Liderliyi" layihəsi çərçivəsində bir sıra təhsil işçiləri ilə birgə ABŞ-ın Cənubi Konnektikut Dövlət Universiteti və Nyu-Yorkdakı Kolumbiya Universitetinin Müəllimlər Kollecində təşkil edilən təlimlərdə və görüşlərdə iştirak etmək məqsədilə ABŞ-a ezam olunmuşdur. Təlim səfərinin məqsədi məktəb liderliyi təcrübəsinin öyrənilməsi, bu istiqamətdə peşəkarlıq səviyyəsinin yüksəldilməsi, idarəetmənin təkmilləşdirilməsi istiqamətində müvafiq bilik və təcrübənin əldə edilməsi, çevik və müasir idarəetmə bacarıqlarına yiyələnməkdir. Səfər müddətində Cənubi Konnektikut ştatındakı bir neçə ibtidai, əsas və orta məktəblərin rəhbərləri ilə görüşlər keçirilmiş, məktəblərin idarə olunması, fəaliyyətləri və müəyyən lazımi sənədlər təqdim edilmiş, dərs prosesləri müşahidə edilərək müəyyən tədqiqatlar aparılmışdır. Həmçinin, səfər zamanı Cənubi Konnektikut Dövlət Universitetində və Konnektikut Dövlət Təhsil Departamentində liderliyə dair seminarlarda "Liderlik standartları və onların məktəblərdə tətbiqi", "Təhsildə bərabərlik" mövzuları üzrə təqdimatlar dinlənilmiş və həmin mövzular ətrafında fikir mübadiləsi aparılmışdır.

Səfər çərçivəsində Nyu-Yorkdakı Kolumbiya Universitetinin Müəllimlər Kollecində professor-müəllim heyəti və tələbələr ilə görüşən nümayəndə heyəti ölkəmizdə pedaqoji kadrların fəaliyyəti, müəllimlərin dərs yükü, eyni zamanda, Azərbaycan təhsilində aparılan islahatlar və yeni mexanizmlərin tətbiqinə dair verilən tədqiqat xarakterli sualları cavablandırmışlar. Səfərin sonunda ölkəmizi təmsil edən iştirakçılara Cənubi Konnektikut Dövlət Universiteti tərəfindən müvafiq sertifikatlar təqdim edilmişdir. Səfərdən qayıtdıqdan sonra həmin təlim səfərinə dair Hesabat hazırlanmış və Nazirliyin Beynəlxalq əlaqələr şöbəsinə təqdim edilmişdir.

**10.** 27-28 fevral, 12-14 mart, 02-04 aprel tarixlərində orta təhsil kursu üzrə mərkəzləşdirilmiş qaydada yoxlama imtahanlarının, 02-04 iyun və 16-18 iyun tarixlərində isə buraxılış imtahanlarının keçirilməsi məqsədilə, şöbənin əməkdaşları Bakı şəhərində və müəyyən rayonlarda təhkim olduqları mərkəzlərdə həmin imtahanlarda iştirak edən nəzarətçilərlə görüş keçirmiş, imtahan keçirilən mərkəzlərdə təşkilati işlərə nəzarət etmiş və imtahanlara rəhbərlik funksiyasını yerinə yetirmişlər. Yoxlama və buraxılış imtahanları başa çatdıqdan sonra Hesabat hazırlanmış, Monitorinq və qiymətləndirmə şöbəsinə təqdim edilmişdir.

**11.** Fevral ayında "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" üzrə həyata keçirilən tədbirlər ilə əlaqədar Təhsil Nazirliyinin 2009-cu il üçün 47 səhifəlik, iyul ayında isə 2010-cu ilin ilk altı ayı ərzində görülmüş işlə barədə 49 səhifəlik hesabat hazırlanaraq İqtisadi İnkişaf Nazirliyinə göndərilmişdir.

**12.** Amerika Hüquqşünaşlar Assosiasiyası, Mərkəzi Avropa və Avrasiyada Hüquq Təşəbbüsü (ABA-CEELİ) təşkilatı və Təhsil Nazirliyinin respublikanın ümumtəhsil məktəblərində birgə həyata keçirdiyi "Canlı Hüquq" proqramı 2010-cu dərs ilində də davam etdirilmişdir. Buna müvafiq olaraq cari ilin fevral ayında Təhsil Nazirliyində həmin proqrama qoşulmuş ümumtəhsil məktəblərin rəhbərləri ilə iştirakçı tələbələrin təntənəli yığıncağı təşkil edilmişdir.

**13.** Təhsil Nazirliyi və Britaniya Şurasının birgə həyata keçirdiyi "Ümumtəhsil məktəblərində ingilis dilinin intensiv tədrisi layihəsi" cari ildə I-III və V-VII siniflərdə davam etdirilmişdir. Bu layihə çərçivəsində xarici dillərin intensiv və səmərəli öyrədilməsi üçün müasir təlim strategiyalarının tətbiqi, bu sahədə aparılan eksperimentlərin genişləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsinə uyğun olaraq **fevral və may aylarında** iki mərhələ üzrə müəyyənləşdirilmiş müəllimlərə təlimlərin keçirilməsi təşkil edilmişdir. 2009-cu ildə olduğu kimi "İngilis dilinin intensiv tədrisi" layihəsi cərçivəsində 7 məktəbdə dərslərin monitorinqi keçirilmiş, həmin monitorinqin nəticələri hazırlanmış və məktəb rəhbərləri ilə birlikdə müzakirə edilmişdir. Hesabatlar məktəblərə təqdim edilmişdir.

**14.** 11 mart tarixində fevralın 21-28-də ABŞ-a səfər zamanı “Məktəb Liderliyi” layihəsi çərçivəsində keçirilən təlimlərdə əldə edilən nəticələri müzakirə etmək məqsədilə Müasir Təhsil və Tədrisə Yardım Mərkəzində görüş keçirilmişdir. Görüş zamanı məktəb idarəetməsinə dair əldə olunan təcrübənin nəticələri, liderlik standartları və onların məktəblərdə tətbiqi üsulları, həmçinin, səfər zamanı ABŞ təcrübəsinə əsasən Azərbaycan təhsili kontekstində “Məktəb Liderliyi” layihəsi üzrə hazırlanmış Fəaliyyət Planında nəzərdə tutulan məqsədyönlü tədbirlərin - məktəblərin idarəetmə sisteminin daha da təkmilləşdirilməsi, direktor və direktor müavinlərinin, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, onların müasir fəal təlim texnologiyalarının tətbiqi sahəsində müəyyən bacarıqların əldə edilməsi və məktəblərin yararlı monitorinq və qiymətləndirmə metodlarından səmərəli istifadə etmələrinə dair tədbirlərin gələcəkdə həyata keçirilməsi istiqamətində fikir mübadiləsi aparılmışdır.

**15.** 08 aprel tarixində Təhsil Nazirliyi, Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi ilə birgə həyata keçirilən “Məktəb Liderliyi” layihəsi çərçivəsində məktəb direktorları və tədris hissə müdirləri üçün strateji planlaşdırma prosesi üzrə təlimlər keçirilmiş və şöbənin əməkdaşı Vüqar Əbdülrəhimov həmin təlimlərdə iştirak etmişdir.

**16.** 19 aprel tarixində Təhsil Nazirliyində “Ən yaxşı müəllim” müsabiqəsi ilə əlaqədar iclasda keçirilmişdir. Buna müvafiq olaraq, şöbənin əməkdaşları Sevil Məmmədova və Vüqar Əbdülrəhimov 21-23 aprel tarixlərində təhkim olduqları məktəblərdə sinif otaqlarına nəzarət etmiş, müəyyən təşkilati məsələlərin müzakirəsində, həmçinin açıq dərslərdə iştirak edən ekspert qrupu və müəllimlərlə birgə dərs cədvəllərinin müəyyənləşdirilməsi prosesində və nəhayət, açıq dərslərdə iştirak etmişlər. Açıq dərslərdən sonra ekspert qrupu ilə birgə həmin müəllimlərə dərslərinin necə və hansı üslubda keçmələri, dərs zamanı meydana çıxan müəyyən nöqsan və problemləri, həmçinin, üstün cəhətləri barədə məlumat verilmişdir.

**17.** “Metodik xidmətin təşkili vəziyyəti və onun yaxşılaşdırılmasına dair tədbirlər” və “Məktəb şəbəkəsinin rasionallaşdırılması” mövzuları üzrə kollegiya materialları hazırlanmış və 01 may tarixində həmin mövzulara dair kollegiya iclasları keçirilmişdir.

**18.** 03 may tarixində peşə məktəbi və liseylərində strateji planlaşdırma mexanizminin tətbiqi məqsədilə Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilən “Peşə təhsili və təlimi sahəsində islahatlar strategiyası və Azərbaycanın seçilmiş rayonunda pilot icrası” layihəsinin ekspertləri Devid Hardi, Ellen Jeppesen, Soren Poulsen və Nazirliyin Texniki-peşə təhsili şöbəsinin müdiri Namiq Məmmədov ilə birgə görüş keçirilmişdir. Həmin görüşdə şöbənin əməkdaşı, planlaşdırma sahəsinə məsul olan şəxs Vüqar Əbdülrəhimov da iştirak etmişdir.

**19.** 07 may tarixində şöbənin aparıcı məsləhətçisi Vüqar Əbdülrəhimov Təhsil Nazirliyi, Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi ilə birgə həyata keçirilən “Məktəb Liderliyi” layihəsi çərçivəsində müəyyənləşdirilmiş rayon və şəhərlərin bəzi məktəblərində strateji planlaşdırma mexanizminin tətbiqi məqsədilə Sumqayıt şəhərindəki 24 nömrəli orta məktəbdə həmin mövzu üzrə keçirilən treninqdə iştirak etmişdir.

**20.** 11 may və 19-20 may tarixlərində şöbənin aparıcı məsləhətçisi Vüqar Əbdülrəhimov “Peşə təhsili və təlimi sahəsində islahatlar strategiyası və Azərbaycanın seçilmiş rayonunda pilot icrası” layihəsi çərçivəsində müəyyənləşdirilmiş peşə məktəblərində strateji planlaşdırma mexanizminin tətbiqi məqsədilə həmin peşə məktəblərinin direktor və direktor müavinləri üçün “İrşad” və “Kresent Biiç” (Crescent Beach) otellərində keçirilən treninqlərdə iştirak etmişdir.

**21.** Cari ilin may-iyun aylarında şöbənin əməkdaşı Sevil Məmmədova Beynəlxalq Miqrasiya Təşkilatı və Təhsil Nazirliyinin birgə layihəsi çərçivəsində respublikanın bir çox rayonlarının ümumtəhsil məktəb müəllimləri üçün keçirilən təlimlərdə iştirak etmişdir. Məlumat üçün qeyd etmək istərdik ki, həmin təlimlərdən 800 müəllim keçmişdir, həmçinin həmin layihə çərşivəsində müəllimlər üçün Təhsil Nazirliyi tərəfindən redaktə olunmuş 3.510 ədəd azərbaycan dilində, 800 ədəd rus dilində vəsait, 19.000 ədəd yaddaş kitabçası, 81.000 ədəd şagird üçün çib kartı, 42.000 buklet və 5.750 ədəd plakat Beynəlxalq Miqrasiya təşkilatı tərəfindən çap edilmişdir. Həmin materiallar Təhsil Nazirliyi xətti ilə məktəblərə paylanılmışdır: Eyni zamanda kiçik həcmli filmlərdən ibarət hazırlanmış 500 ədəd elektron vəsaitin məktəblərə paylanılması təşkil edilmişdir.

**21.** 01 iyun tarixində şöbənin əməkdaşları Nazirlikdə IX və XI siniflərdə buraxılış imtahanlarının keçirilməsi ilə əlaqədar, həmçinin uşaqların müdafiəsi gününə həsr olunmuş iclaslarda iştirak etmişlər.

**22.** Şöbənin əməkdaşları Vüqar Əbdülrəhimov və Natiq Əliyev Təhsil Nazirliyinin 08 iyun 2010-cu il tarixli 11/308 nömrəli əmri ilə 28 iyun-02 iyul tarixlərində Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi (MTTYM) ilə birgə həyata keçirilən "Məktəb Liderliyi" layihəsi çərçivəsində *"Müasir dövrdə liderlik: keçid dövrünü yaşayan cəmiyyətlərdə təhsil liderliyi"* mövzusu üzrə Gürcüstanda təşkil edilən yay məktəbində iştirak etmişlər. Yay məktəbinin əsas məqsədi təhsildə liderlik təcrübəsini öyrənmək, rəhbər və pedaqoji kadrların idarəetmə sahəsində peşəkarlıq səviyyəsini yüksəltmək, eyni zamanda, idarəetmənin təkmilləşdirilməsi istiqamətində müvafiq bilikləri əldə etmək və müasir idarəetmə bacarıqlarına yiyələnməkdir. Yay məktəbindən qayıtdıqdan sonra əldə edilən təcrübənin nəticələrinə dair Hesabat hazırlanmış və həmin hesabat Nazirliyin Beynəlxalq əlaqələr şöbəsinə təqdim edilmişdir.

**23.** Təhsil Nazirliyinin 05.07.2010-cu il tarixli 971 nömrəli əmri ilə 06-24 iyul tarixlərində Azərbaycan Müəllimlər İnstitutunda "Məktəb uşağın dostudur" layihəsi çərçivəsində 100 nəfər məktəb rəhbəri və 10 nəfər rayon (şəhər) təhsil şöbə (idarə) müdirləri üçün "Ümumtəhsil məktəblərinin səmərəli idarəolunması" mövzusunda təlim kursları keçirilmişdir. Həmin təlim kurslarında şöbənin əməkdaşı Sevil Məmmədova iştirak etmişdir. Təlim kursları cari ilin sentyabr-oktyabr aylarında Bakı şəhəri üzrə müəyyənləşdirilmiş məktəblərdə davam etdirilmişdir.

**24.** 04 sentyabr tarixində "2009-2010-cu dərs ilinin yekunları və 2010-2011-ci dərs ilində qarşıda duran vəzifələr" mövzusunda təhsil işçilərinin respublika Konfransı keçirilmiş və şöbənin əməkdaşları həmin Konfransda iştirak etmişlər.

**25.** 21 oktyabr tarixində şöbənin əməkdaşı Vüqar Əbdülrəhimov "Panasonic" kompaniyası və onun Azərbaycandakı rəsmi partnyoru "Bakond" şirkətinin "Təhsil sistemi üçün interaktiv kompleks avadanlıqları (panabordlar, proyektorlar)" mövzusu üzrə Avropa otelində keçirilən təqdimatda iştirak etmişdir.

**26.** Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (2009-2014-cü illər) "Təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, müəllim peşəsi ilə bağlı reqlamentləşdirici qaydaların yenidən işlənməsi və tətbiqi" alt-komponentin İcra Planında nəzərdə tutulan *"Təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, rayon (şəhər) təhsil şöbələrində (idarələrdə) strateji planlaşdırma və hesabatvermə sisteminin tətbiqi"* vəzifəsinə uyğun olaraq 30 oktyabr tarixində "Ankara məktəbi" məktəb-liseyində "Rayon (Şəhər) təhsil şöbələri (idarələr) üçün strateji planlaşdırma prosesi və strateji planların hazırlanması" mövzusu üzrə təlimati seminar keçirilmişdir.

Seminarın əsas məqsədi Nazirliyin 2010-2012-ci illəri əhatə edən Strateji Planına əsasən R(Ş)TŞ-lərin (idarələrin) 2011-2012-ci illər üçün 2 illik Strateji Planlarının hazırlanması və buna müvafiq olaraq yerlərdə strateji planlaşdırma və yeni hesabatvermə mexanizminin daha səmərəli tətbiqi və həyata keçirilməsi vasitəsilə idarəetmə sisteminin təkmilləşdirilməsidir.

Seminarda Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Sumqayıt Şəhər Təhsil Şöbəsi, Gəncə Şəhər Təhsil İdarəsi, ölkənin digər rayon (şəhər) təhsil şöbələri (idarələri) və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyindən strateji planlaşdırma prosesi üzrə müəyyənləşdirilən 66 məsul şəxs iştirak etmişdir.

Seminarda şöbənin müdiri Fərzəli Qədirov, həmin şöbənin aparıcı məsləhətçiləri Vüqar Əbdülrəhimov, Natiq Əliyev, İqtisadiyyat şöbəsi plan-maliyyə sektorunun müdiri Vüqar Əsgərov, Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin Əlaqələndirmə Qrupunun rəhbəri Elvin Rüstəmov, Müasir Təhsil və Tədrisə Yardım Mərkəzinin koordinatoru Raziyə İsayeva çıxış etmiş, fikir və təkliflərini bildirmişlər. Həmçinin seminar iştirakçılarına strateji planlaşdırmanın məqsədi, bu prosesin həyata keçirilməsi üçün yerlərdə müvafiq işçi qrupunun yaradılması və həmin prosesə maraqlı tərəflərin cəlb edilməsi, strateji planın elementləri, fəaliyyət və büdcə planlarının hazırlanması barədə təqdimatlar vasitəsilə ətraflı məlumat verilmiş, bu istiqamətdə müzakirələr aparılmış, iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır. Eyni zamanda, müvafiq sənədlər toplusu (Nazirliyin Strateji Planı (2010-2012-ci illər), "R(Ş)TŞ-lər (idarələr) üçün strateji planlaşdırma prosesi və strateji planların

hazırlanması" adlı təqdimatın tezisləri və R(Ş)TŞ-lər (idarələri) üçün strateji planın çərçivəsi) təqdim edilmişdir.

**27.** 2010-cu dərs ilində YUNİSEF, Təhsil və Fövqəladə Hallar Nazirlikləri ilə birgə "Təhsildə fəlakət riskinin aradan qaldırılması" (DİPECHO) layihəsi həyata keçirilməyə başlanılmışdır. Layihə çərçivəsində işçi qrupu yaradılmış və tədbirlər planı hazırlanmışdır. Həmin tədbirlər planı Təhsil və Fövqəladə Hallar Nazirləri tərəfindən 29 oktyabr tarixində imzalanmışdır. Layihə çərçivəsində 07-14 noyabr tarixlərində şöbənin aparıcı məsləhətçisi Sevil Məmmədova İsveçrənin Çenevrə şəhərində ezamiyyədə olmuş, həmçinin 24-29 noyabr tarixlərində həmin layihə üzrə seçilmiş 6 regionun ( Bakı şəhəri, Şamaxı, Şəki, Zaqatala, Sabirabad və Saatlı rayonları) 10 pilot məktəbinə səfər etmiş və onların ehtiyacları nəzərdən keçirilərək siyahıya alınmışdır.

**28.** 29 noyabr-03 dekabr tarixlərində şöbənin əməkdaşı Sevda Abbasova Rusiya Federasiyasının Moskva şəhərində MDB və Baltikyanı dövlətlərin VIII Beynəlxalq rus dili olimpiadası və rus dili festivalında iştirak etmişdir.

**29.** 01-04 dekabr tarixlərində şöbənin əməkdaşı Sevil Məmmədova Beynəlxalq Miqrasiya Təşkilatı, Daxili İşlər və Təhsil Nazirliklərinin birgə həyata keçirdiyi "Azərbaycanda insan alverinin qarşısının alınması üzrə orta məktəb təhsili" layihəsi çərçivəsində Gürcüstan Respublikasında keçirilən beynəlxalq konfransda iştirak etmişdir.

**30.** 5-11 dekabr tarixlərində şöbənin müdiri Fərzəli Qədirov, Əlavə təhsil sektorunun müdiri Zöhrab Kəlbılıyev Nazirliyin Akkreditasiya şöbəsinin bəzi əməkdaşları ilə birgə Böyük Britaniyada "Əlavə və ali təhsil müəssisələrinin akkreditasiyası ilə bağlı Britaniya Akkreditasiya Şurasının iş təcrübəsinin öyrənilməsi" məqsədilə İngiltərədə ezamiyyədə olmuşlar.

**Y**uxarıda qeyd olunan məsələləri nəzərə alaraq şöbə tərəfindən 2010-cu il ərzində aşağıdakı digər ümumi işlər həyata keçirilmişdir:

**1.** Azərbaycan Respublikası Prezidentinin "İcra intizamının möhkəmləndirilməsi və icraya nəzarətin təşkilinin təkmilləşdirilməsi tədbirləri haqqında" 26 oktyabr 2006-cı il tarixli, 472 nömrəli Fərmanının icrası ilə əlaqədar 2009-cu ildə ölkə başçısı tərəfindən imzalanmış fərman və sərəncamlar üzrə görülmüş işlər barədə 92 səhifəlik məlumat hazırlanmışdır. Məlumatda Dövlət Proqramlarında, Milli Fəaliyyət və Tədbirlər Planlarında icrası 2009-cu il üçün nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsi, görülən işlərin keyfiyəti və kəmiyyəti barədə məlumatlar öz əksini tapmışdır.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 15 sentyabr tarixli, 3043 nömrəli sərəncamı ilə təsdiq edilmiş "2008-2015–ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın Tədbirlər Planına uyğun olaraq 2011-2015-ci illər üzrə növbəti Tədbirlər Planının hazırlanması məqsədilə Dövlət Proqramına yenidən baxılmış, Dövlət Proqramının məqsəd və hədəflərinə uyğun olaraq 2011-2015-ci illər üzrə Tədbirlər Planının hazırlanması məqsədilə tədbirlərin icrası və həyata keçirilməsi üçün 15 səhifəlik rəy və təkliflər İqtisadi İnkişaf Nazirliyinə təqdim edilmişdir.

**3.** Azərbaycan Respublikası Prezidentinin 15.05.07 tarixli, 2167 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)"nın icrası ilə əlaqədar Təhsil Nazirliyinin cari ilin 6 ayı ərzində gördüyü işlər barədə 10 səhifəlik məlumat hazırlanmış və həmin məlumatlar Əmək və Əhalinin Sosial müdafiəsi Nazirliyinə təqdim edilmişdir.

**4.** Azərbaycan Respublikası Prezidentinin 18.02.2009-cu il tarixli, № 163 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2009-cu ilin "Uşaq ili" elan edilməsi ilə bağlı Tədbirlər planı"nın icrası ilə bağlı Təhsil Nazirliyinin gördüyü işlər barədə 24 səhifəlik məlumat hazırlanmış və Azərbaycan Respublikası Prezidenti Administrasiyasına və Ombudsman Aparatına təqdim edilmişdir.

**5.** YUNİSEF-in Təhsil Nazirliyi ilə birgə həyata keçirdiyi layihələr 2010-cu ildə də davam etdirilmiş və YUNİSEF-in cari il üzrə tədbirlər planına rəy və təkliflər verilərək yenidən işlənilmiş və təsdiq edilimişdir.

**6.** Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planının (2009-2013-cü illər) təsdiq edilməsi" haqqında 06.02.2009-cu il tarixli, 133 nömrəli Sərəncamının icrasına uyğun olaraq Təhsil Nazirliyinin 09.04.2009-cu il tarixli, 398 nömrəli əmri ilə Tədbirlər Planı təsdiq edilmişdir. Tədbirlər planında nəzərdə tutulan birgə tədbirlərin icrası ilə əlaqədar Nazirliyin müvafiq struktur bölmələrinə və yerli təhsil idarəetmə orqanlarının və təhsil müəssisələrinin rəhbərlərinə tapşırıq verilmişdir. Həmin tədbirlər planına uyğun olaraq insan alverinin profilaktikasının gücləndirilməsi istiqamətində 2009-cu ildən etibarən Beynəlxalq Miqrasiya Təşkilatı, Daxili İşlər və Təhsil Nazirliklərinin birgə həyata keçurdiyi "Azərbaycanda insan alverinin qarşısının alınması üzrə orta məktəb təhsili" layihəsi cari ildə davam etdirilmişdir.

**7.** Cari ildə insan alverinin mahiyyəti və təhlükəsi, qanunsuz miqrasiyanın doğurduğu təhlükələr barədə məlumatlandırma məqsədilə ali, orta ixtisas və texniki peşə təhsili müəssisələrində həmin layihə çərçivəsində müəllimlər, şagirdlər, valideynlərin iştirakı ilə tədbirlər, o cümlədən seminarlar, "dəyirmi masalar", debatlar təşkil edilmişdir. İctimai fənlərin məzmununda uyğun mövzuların tədrisi prosesində qanunsuz miqrasiyanın azaldılması, insanlarla ticarətin qarşısının azaldılması və aradan qaldırılması üçün dövlət qurumları tərəfindən görülən işlər barədə şagird və tələbələrə biliklər verilmişdir. IX-XI siniflərdə tətbiq ediləcək müəllimlər üçün vəsaitin modulu hazırlanmış, 2009-2010-cu dərs ilində seçilmiş 15 pilot məktəbində yeni hazırlanmış vəsait sınaqdan keçirilərək, müəllim, şagird və valideynlər üçün marifləndirmə tədbirləri keçirilmişdir.

**8.** 2010-2011-ci dərs ilində həm Bakı şəhəri, həm də respublikanın rayonları üzrə 35 ümumtəhsil məktəblərinin I və V siniflərində "Rus dilinin intensiv tədrisi" layihəsi davam etdirilmişdir. Layihə çərçivəsində ən yaxşı müəllim, ən yaxşı şagird müsabiqələri keçirilmişdir. Rusiya ilə Əməkdaşlıq Təşəbbüsləri Federal Agentliyinin ölkəmizdə birgə həyata keçirdikləri "Rus dili (2006-2010-cu illər) proqramı" çərçivəsində Gəncə, Xaçmaz, Lənkəran, Masallı, Cəlilabad, Yardımlı, rayonlarının təhsil işçilərinin, fəal tələbə və şagirdlərin iştirakı ilə müzakirələr keçirilmişdir. Layihə çərçivəsində İyul-avqust aylarında 9 nəfər şagird yuxarı sinif, 5 nəfər isə 5 və 6 sinif şagirdləri və 1 nəfər müəllim Moskva şəhərinə yay-idman sağlamlıq düşərgəsinə göndərilmişdir. Həmin layihə çərçivəsində noyabr ayında 6 nəfər rus dili müəllimi Sankt-Peterbruq şəhərində 15 günlük ixtisasartırma kurslarında iştirak etmişdir. Bu layihə çərçivəsində pilot məktəblərinə xeyli sayda pulsuz bədii ədəbiyyat və rus dili dərslikləri paylanılmışdır.

**9.** Cari ildə "ANS" Müstəqil Yayım və Media Şirkəti Təhsil Nazirliyi ilə birgə hazırlanan 11-ci sinif şagirdlərinin iştirakı ilə "Ağıl Dəryası" erudisiya, əyləncə və intellektual yarış xarakterli layihə həyata keçirilmişdir. Həmin yarışın şəffaf həyata keçirilməsi üçün layihə çərçivəsində 7 fənn müəllimlərindən ibarət işçi qrupu yaradılmışdır. Fənlər üzrə testlər işçi qrupu tərəfindən hazırlanahhraq layihə rəhbərinə təqdim edilmişdir.

**10.** "Gənclərin Nailiyyəti" Azərbaycan təşkilatının "Azərbaycan məktəblərində iqtisadiyyatın tədrisi" proqramı cari ildə davam etdirilmiş, həmin proqrama müvafiq olaraq müəyyənləşdirilmiş kollec, lisey və orta məktəblərdə proqramın həyata keçirilməsi üçün əmr və təlimati məktub hazırlanmış və yerlərə göndərilmişdir.

**11.** 2010/2011-ci dərs ilində 1-ci sinifdə işləyəcək ibtidai sinif müəllimlərinin "Yeni fənn kurikulumunun tətbiqi ilə əlaqədar 6 günlük (36 saat) təlim kurslarına cəlb edilməsi ilə əlaqədar təşkilati işlər görülmüş və bununla əlaqədar digər vəzifələr yerinə yetirilmişdir. Təqdim olunmuş sənədlərin araşdırılması və qiymətləndirilməsi üzrə keçirilmiş tender komissiyalarının qərarı əsasında 4 təşkilat təlim kurslarını keçirmək hüququ qazanmışdır. *"Müasir təhsil və tədrisə yardım mərkəzi"* 1-ci, 8-ci və 9-cu lotlar üzrə 28 təlim mərkəzində 1851 müəllimin, *"İnkişaf" elmi mərkəzi* 2-ci, 3-cü və 6-cı lotlar üzrə 28 təlim mərkəzində 2073 müəllimin, *"Azad Müəllimlər Birliyi"* 4-cü, 5-ci və 7-ci lotlar üzrə 43 təlim mərkəzində 2304 müəllimin, *"Şəxsiyyətin inkişafı və yeni pedaqoji texnologiyalar üzrə İctimai Birlik"* 10-cu, 11-ci və 12-ci lotlar üzrə 28 təlim mərkəzində 2049 müəllimin, mumilikdə, 12 lot üzrə 127 təlim mərkəzində 8277 müəllimin kursdan keçirilməsi proqnozlaşdırılmış və bu kursların 109 təlimçi tərəfindən aparılması nəzərdə tutulmuşdur.

Yuxarıda adları qeyd olunan təşkilatlar onlarla bağlanacaq müqavilə şərtlərinə uyğun olaraq Təhsil Nazirliyinin təsdiq etdiyi təlim planı və proqramı, onlara əlavə olunan nümunəvi təlim materialları əsasında **cari ilin iyun-sentyabr aylarında** təlim kursları həyata keçirilmiş və özləri tərəfindən müəyyənləşdirdikləri metodologiya əsasında təlim iştirakçılarının təlimdən sonrakı fəaliyyətlərinin keyfiyyətinin yekun qiymətləndirilməsi aparılmışdır. Təlimlərin nəticələri, təlim iştirakçılarının fərdi iştirak səviyyəsi, hər təlim qrupunun təlim nailiyyətləri haqqında təşkilatlar tərəfindən Təhsil Nazirliyinə təqdim edilmiş hesabatlar araşdırılaraq onlara rəy veririlmişdir. Ümumilikdə, 7778 nəfər ibtidai sinif müəllimi həmin təlim kurslarından keçərək müvafiq sertifikatlar əldə etmişdir.

**12.** Əməkdaşlıq etdiyimiz təşkilatların - “British Council”, “Uşaqların Xilası” “Ümidli Gələcək Gənclər”, “Dünyaya Baxış” təşkilatları, “Avrasiya fondu”, “Buta” uşaq fondu və digər təşkilatların, həmçinin, QHT nümayəndələri ilə görüşlər keçirilmiş və şöbənin əməkdaşları həmin tədbirlərdə iştirak etmişlər.

**13.** İl ərzində təhsil işçilərinə fəxri adların verilməsi, dövlət təltiflərinə namizədlər haqqında məlumatların hazırlanması və təltif olunanların şəxsi işlərinin toplanması, Təhsil Nazirliyinin təltiflərinin verilməsi üzrə sənədləşdirmə işlərinin aparılması həyata keçirilmişdir. 2010-cu il ərzində 182 nəfərin Təhsil Nazirliyinin ”Qabaqcıl təhsil işçisi” döş nişanı və 258 nəfərin Fəxri Fərmanla təltif edilməsi üzrə sənədləşdirmə işləri yerinə yetirilmişdir. Eyni zamanda, yüksək dövlət təltifi almağa namizədlərin, o cümlədən Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə namizədlərin siyahılarının hazırlanması və barələrində olan məlumatların daxil edilməsi yerinə yetirilmişdir. Həmçinin, 2010-cu ildə Dövlət təltifi almış təhsil işçilərinin şəxsi işlərinin, məlumat kartlarının və barələrində qısa elektron arayışların Prezident Administrasiyasına təqdim olunmaq üçün hazırlanması işi icra olunmuşdur.

**14.** Təhsil Nazirliyinin birbaşa tabeliyində olan məktəblərin ÜM-1 hesabatlarına müəllim-şagird nisbətinə dair mütəxəssis qeydləri aparılmışdır.

**15.** Təhsil Nazirliyində planlaşdırılmış tədqiqatların istiqamətlərinin dəqiqləşdirilməsi məqsədilə araşdırmalar aparılaraq, müəyyən olunmuş dövlət sənədlərindən çıxarışlar edilmiş və tövsiyələr hazırlanmışdır. Eyni zamanda, Təhsil Nazirliyinin, digər dövlət müəssisələrinin, beynəlxalq və milli QHT-lərin, maliyyə qurumların fəaliyyət planlarında əks olunan təhsil sahəsinə dair məsələlər müəyyənləşdirilmiş və əlaqələndirilmişdir.

**16.** Şöbələrdən daxil olan statistik və yazılı məlumatlar ümumiləşdirilmiş, yekun məlumatlar hazırlanmış, il ərzində şöbəyə daxil olan məktublara, ərizə və şikayətlərə, nəzarət xarakterli sənədlərə baxılmış və həmin sənədlər icra olunmuşdur.

**17.** Eyni zamanda, şöbənin əməkdaşları mütəmadi olaraq vətəndaşların qəbulu prosesində iştirak edərək, onların müraciətlərinə və şikayətlərinə aidiyyatı üzrə cavab verilmişdir.

**18.** Həmçinin, Nazirliyin “Qaynar Xətt” xidmətinə daxil olan məlumatlar araşdırılmış, təhlil edilmiş və nəticələr ilə bağlı Arayış hazırlanmışdır.

**19.** İl ərzində şöbənin İş Planında əsk olunan tədbirlər nəzərdən keçirilmiş və əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərin icrası barədə şöbə müdirinə məlumat verilmişdir.

**20.** Nazirlikdə strateji planlaşdırmanın icrası prosesini nəzərə alaraq, şöbələrin il ərzində gördükləri işlərə dair hesabatları nəzərdən keçirilmiş və müvafiq struktur bölmələrlə birgə Nazirliyin 2010-cu ildə gördüyü işlərə dair ümumi hesabatı hazırlanmışdır.

**21.** Təhsil Nazirliyinin illik fəaliyyət planı nəzərdən keçirilərək, görülən işlər qiymətləndirilmiş və düzəlişlərə dair tövsiyələr verilmiş, təhsil sektorunda aparılan islahatların əhatə dairəsinin bütövlüyü və səmərəliliyi haqqında məlumatlar toplanmış və təhlillər aparılmışdır.

**22.** Hesabatvermənin daha səmərəli təşkili, həmçinin, gündəlik fəaliyyətin qeyd edilməsi məqsədilə nazir tərəfindən şöbənin hər bir əməkdaşına “agenda” dəftəri imzalanıb təqdim edilmiş və il ərzində görülən işlər gündəlik olaraq həmin dəftərdə qeyd olunmuşdur.

**II. İl ərzində təhsil nazirliyinin mərkəzi aparatinda və təhsil sistemində kadrlarin idarə olunmasi sahəsi üzrə şöbə tərəfindən görülən işlərin icra vəziyyəti.**

Azərbaycan Respublikasında təhsil sisteminin qarşısında duran vacib istiqamətlərdən biri də ümumtəhsil məktəblərində pedaqoji kadr təminatı probleminin aradan qaldırılması ilə əlaqədardır.

Ümumiyyətlə, təhsil sektorunun ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr çatışmazlığı, həmin ixtisaslı mütəxəssislərin konkret iş yerləri ilə təminatı problemlərinin həlli son nəticədə Azərbaycan təhsilinin keyfiyyət göstəricilərinə öz müsbət təsirini göstərməklə gələcək inkişafa təkan verərək mühüm fəaliyyət istiqaməti kimi qiymətləndirilir.

Aydın məsələdir ki, Nazirlər Kabinetinin «Kənd yerlərindəki ümumtəhsil məktəblərinə pedaqoji kadrların cəlb olunmasının həvəsləndirilməsi tədbirləri haqqında» 22 iyun 2004-cü il tarixli 85 nömrəli qərarı imzalanmış, 04 noyabr 2004-cü il tarixli 230 (s) nömrəli Sərəncamı ilə «2005-2009-cu illər üçün Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə İnkişaf Proqramı» təsdiqlənmişdir. Bu qərara və İnkişaf Proqramının I və II istiqamətlərinə əsasən 2005-ci ildən etibarən Respublikanın kənd rayonlarında yerləşən ümumtəhsil məktəblərinin pedaqoji kadr tələbatını ödəmək məqsədilə dövlət ali və orta ixtisas məktəblərini pedaqoji ixtisaslar üzrə bitirərək, dövlət sifarişinə uyğun konkret iş yerlərində əmək fəaliyyətinə başlayan və 3 il müddətində bu fəaliyyəti davam etdirən gənc mütəxəssislərə, eləcə də həmin bölgələrdə işləmək arzusunu bildirən digər kateqoriyalı pedaqoji kadrlara 3 il müddətində kommunal xidmətlərini ödəmək üçün ayda şərti maliyyə vahidinin 10 misli məbləğində kompensasiya verilməsi və yerli icra hakimiyyəti orqanları tərəfindən müvafiq qurumlarla birgə onlara lazımi mənzil-məişət şəraitinin yaradılması, daimi məskunlaşmaq üçün torpaq sahələrinin ayrılması və kreditlərin verilməsinə kömək göstərilməsi, yol xərci, əmlakın daşınması üçün nəqliyyat xərci və ilkin yaşayış şəraitinin yaradılması məqsədilə bir stavka aylıq əmək haqqı həcmində birdəfəlik yardım ödənilməsi, gənc mütəxəssislər üçün lazımi əmək şəraitinin yaradılması məqsədilə təhsilin yerli idarəetmə orqanlarının fəaliyyətinin gücləndirilməsi, bu kateqoriyadan olan işçilərə diqqət və qayğının artırılması, müvafiq stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi, real tələbata uyğun iş yerlərinə göndərilən gənc mütəxəssislərin tədris edəcəkləri fənn üzrə dərslik, dərs vəsaiti, tədris planı və proqramlarla, digər yardımçı materiallarla təmin edilməsi qarşıya məqsəd kimi qoyulmuşdur.

Aparılmış məqsədyönlü fəaliyyət nəticəsində «Kənd yerlərindəki ümumtəhsil məktəblərinə pedaqoji kadrların cəlb olunmasının həvəsləndirilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 22 iyun tarixli 85 nömrəli qərarına əlavələr və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17.04.2006-cı il tarixli 107 nömrəli qərarı imzalanmışdır. Qeyd olunan qərara əsasən Respublikanın kənd rayonlarında yerləşən ümumtəhsil məktəblərinin pedaqoji kadr tələbatını ödəmək, pedaqoji kadrların yerlərə cəlb olunması prosesində həvəsləndirmə tədbirlərini gücləndirmək məqsədilə dövlət ali və orta ixtisas məktəblərini pedaqoji ixtisaslar üzrə bitirərək, dövlət sifarişinə uyğun konkret iş yerlərində əmək fəaliyyətinə başlayan və 3 il müddətində bu fəaliyyəti davam etdirən gənc mütəxəssislərə, eləcə də həmin bölgələrdə işləmək arzusunu bildirən digər kateqoriyalı pedaqoji kadrlara 3 il müddətində kommunal xidmətlərini ödəmək üçün ayda şərti maliyyə vahidinin 10 misli məbləği 30 misli ilə əvəz edilmişdir. Həmçinin rayon mərkəzindən 20 km-dən artıq məsafədə yerləşən ümumtəhsil məktəblərində əmək fəaliyyətinə başlayan hər bir nəfər üçün 3 il müddətində aylıq əmək haqqına şərti maliyyə vahidinin 20 misli əvəzinə 60 misli məbləğində əlavələrin ödənilməsi, habelə dövlət sifarişinə uyğun konkret iş yerlərinə göndəriş almış gərc mütəxəssislərə yol xərci, əmlakın daşınması üçün nəqliyyat xərci və ilkin yaşayış şəraitinin yaradılması məqsədilə bir stavka aylıq əmək haqqı əvəzinə əmək haqqının iki misli miqdarında birdəfəlik yardım verilməsi qərara alınmışdır.

Qeyd etmək lazımdır ki, 5 illik müddəti əhatə edən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 04 noyabr 2004-cü il tarixli, 230 (s) nömrəli sərəncamı ilə «2005-2009-cu illər üçün Azərbaycan Respublikası ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə İnkişaf Proqramı» 2009-cu ildə başa çatmış, bu dövr ərzində pedaqoji kadrlara olan tələbatın ödənilməsi istiqamətində müsbət və əhəmiyyətli nəticə əldə olunmuşdur.

Aparılmış məqsədyönlü fəaliyyət nəticəsində və «Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 05 sentyabr tarixli, 156 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Pedaqoji profilli ixtisaslar üzrə ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş və ümumi təhsil müəssisələrində işə başlamış gənc mütəxəssislər üçün əlavə güzəştlər və stimullaşdırıcı tədbirlərinin müəyyən edilməsi haqqında» 14 aprel 2010-cu il tarixli, 67 nömrəli qərarı imzalanmışdır. Bu qərara əsasın Nazirlər Kabinetinin yuxarıda adı çəkilən 22.06.2004-cü il tarixli, 85 nömrəli və 17 aprel 2006-cı il tarixli, 107 nömrəli qərarları qüvvədən düşmüş və əvvəlki qərarlardan fərqli olaraq bu qərarda gənc mütəxəssislərə tətbiq olunan maliyyə vəsaitləri artırılmış, ipoteka kreditlərinin verilməsi məsələsi planlaşdırılmışdır. Əhəmiyyətli amillərdən biri də bu qərarın həyata keçirilməsində zaman məhdudiyyətinin qoyulmaması və onun daimi xarakter daşımasıdır.

Beləliklə, bu qərara əsasən pedaqoji profili ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş gənc mütəxəssislərin kənd rayonlarında yerləşən ümumi təhsil müəssisələrinə işə cəlb olunmasının stimullaşdırılması və həmin müəssisələrdə pedaqoji kadr tələbatının ödənilməsi məqsədilə dövlət sifarişinə əsasən iş yerlərində əmək fəaliyyətinə başlayan və 3 il müddətində bu fəaliyyəti ümumi təhsil müəssisələrində davam etdirən gənc mütəxəssislərə aşağıdakı həvəsləndirmə tədbirlərinin tətbiq olunması öz əksini tapmışdır:

- Yol xərci, əmlakın daşınması üçün nəqliyyət xərci, ilkin yaşayış şəraitinin yaradılması məqsədilə əmək haqqının 2 (iki) misli həcmində birləfəlik yardım;
- 3 il müddətində kommunal xidmətlərini ödəmək üçün 40 (qırx) manat məbləğində kompensasiya;
- yaşayış sahələrinə ehtiyaclarının ödənilməsi;
- torpaq sahələrinin ayrılması;
- ipoteka kreditlərinin verilməsi.

Rayon mərkəzlərindən 20 km-dən artıq məsafədə yerləşən ümumi təhsil müəssisələrində əmək fəaliyyətinə başlayan hər bir müəllimə yuxarıda göstərilən həvəsləndirmə tədbirləri ilə yanaşı, həm də 3 il müddətində 70 (yetmiş) manat məbləğində aylıq əmək haqqı əlavə ödəniləcəkdir. Başqa sözlə, 20 km-dək məsafədə yerləşən məktəblərdə fəaliyyət göstərənlərə ayda 40 (qırx) manat, 20 km-dən artıq məsafədə yerləşən məktəblərdə dövlət sifarişinə uyğun işləyənlərə ayda 110 manat (yüz on manat) məbləğində maliyyə vəsaiti ödəniləcəkdir.

Gənc mütəxəssislərin yaşayış sahələrinə ehtiyaclarının ödənilməsinə, daimi məskunlaşmaq üçün torpaq sahələrinin ayrılmasına və ipoteka kreditlərinin verilməsinə köməklik göstərilməsi yerli icra hakimiyyəti orqanları tərəfindən bələdiyyələrlə birlikdə həyata keçirilir.

Bu qərarın icrası ilə əlaqədar Təhsil Nazirliyinin 20.04.2010-cu il tarixli, 455 nömrəli əmri imzalanmış və aidiyyəti struktur bölmələrə, pedaqoji profilli ali və orta ixtisas məktəblərinə, yerli təhsil idarəetmə orqanlarına müvafiq tapşırıqlar verilmiş, 2010/2011-ci tədris ili üçün adı çəkilən qərara uyğun həvəsləndirmə tədbirləri tətbiq edilən kontingent sayı (limit yerləri) müəyyənləşdirilmiş və bu məlumat rəsmi qaydada Maliyyə Nazirliyinə, eləcə də hər bir rayona ayrı-ayrılıqda göndərilmişdir.

Ölkədə perspektiv inkişafın təminatı baxımından dövlət əhəmiyyətli bu sənədlərdə pedaqoji kadrların işlə təmin edilməsi, kadr tələbatının ödənilməsi, ən nəhayət isə pedaqoji profilli gənc mütəxəssislərin konkret iş yerlərinə göndərilməsi probleminin həlli kimi aktual məsələlər nəzərdə tutulmuşdur.

Qeyd olunan problemlərin həlli istiqamətində hər il olduğu kimi, 2010-cu ildə də rayon və şəhər ümumtəhsil məktəblərində boş olan müəllim yerinin tutulması üçün yerli təhsil orqanlarından vakant dərs saatları haqqında məlumatlar toplanmış, bu istiqamətdə Nazirlikdə təhlil aparılmış və ümumi tələbat müəyyənləşdirilmişdir. Eyni zamanda, ali və orta ixtisas məktəblərinin sonuncu kursunda təhsil alan tələbələrin adlı siyahısı, orada ünvanı və ailə vəziyyəti göstərilməklə təhlil olunmuşdur. Verilən həmin siyahılar ayrı-ayrı ixtisaslar üzrə təhlil edilmiş, rayonlar üzrə vakant yerlərin bölgüsü aparılmış, ali və orta ixtisas müəssisələrində yaradılmış dövlət təyinat komissiyalarına göndərilmişdir. Bu prosesdə son dərəcə tələbənin daimi yaşadığı region (rayon, kənd) mütləq əsas kimi götürülmüşdür. Təyinat bölgüsü məzunların istək və arzuları nəzərə alınmaqla mövcud reqlamentləşdirici sənədlər çərçivəsində həyata keçirilmişdir.

Kadr çatışmazlığı probleminin həlli, dövlət sifarişinin tam ödənilməsinə nail olmaq, qarşıya çıxan məsələləri operativ şəkildə həll etmək məqsədilə təhsil müəssisələrində keçirilən təyinat bölgüsü prosesində şöbə əməkdaşlarının iştirakı təmin olunmuş, proses ciddi nəzarətə götürülmüşdür. İşəgöndərilmə prosesi zamanı könüllülük prinsipləri əsas götürülmüş, eləcə də bu və ya digər səbəblərdən əmək fəaliyyətinə başlamaqdan rəsmi imtina edən şəxslərə onların ərizələri əsasında müstəqil işə düzəlmə hüququnun verilməsində məhdudiyyət qoyulmamışdur. Ümumiyyətlə, prosesin gedişinin tam koordinasiyası həyata keçirilmiş, Proqramın statistik göstəriciləri ilə bütün yerli təhsili idarəetmə orqanları rəsmi məlumatlandırılmış və xüsusi məlumat bankı yaradılmışdır.

**R**espublikanın ümumtəhsil məktəblərində pedaqoji kadr tələbatını ödəmək, xüsusilə həvəsləndirmə tədbirləri tətbiq olunan yerlərə cəlbi gücləndirmək məqsədilə mətbuatda və müxtəlif televiziya kanallarında (ANS, SPASE, ATV, AzTV) bu barədə geniş informasiyalar verilmiş və izahat xarakterli məlumatlar əhaliyə çatdırılmışdır. «Azərbaycan müəllimi» qəzetinin 24 avqust 2010-cu il tarixli sayında isə Nazirlər Kabinetinin qərarına uyğun həvəsləndirmə tədbirləri tətbiq olunan yerlər üçün rayonlar və ixtisaslar üzrə, habelə kənd məktəblərinin rayon mərkəzlərindən məsafəsi və dərs yükləri göstərilməklə elan dərc edilmişdir. Eyni zamanda bütün rayon (şəhər) təhsil şöbələrinə həvəsləndirmə tədbirləri tətbiq olunan yerlərə pedaqoji kadrların cəlbini gücləndirmək üçün lazımi tapşırıqlar verilməklə rəsmi məktub göndərilmişdir.

Aparılmış məqsədyönlü tədbirlər nəticəsində və dərc olunmuş elana əsasən Nazirliyə kənd yerlərində yerləşən məktəblərdə işləmək üçün çoxsaylı müraciətlər olunmuş, onlara da bir daha həmin məsələnin mahiyyəti barədə geniş izahat verilmişdir. Hər il olduğu kimi, 2010-cu ildə də dövlət ali və orta ixtisas məktəblərini bitirən məzunların göndərildikləri iş yerlərində əmək fəaliyyətinə başlamaları vəziyyəti öyrənilmiş və bu istiqamətdə müəyyən təhlillər aparılmışdır. Beləliklə, istər Nazirliyə, istərsə də yerli təhsili idarəetmə orqanlarına həvəsləndirmə tədbirləri tətbiq olunan kənd məktəblərində işləmək üçün müraciət edənlərdən səmərəli istifadə olunmaqla 800 nəfərə yaxın pedaqoji kadr yerləşdirilmişdir.

Son 5 ildə respublikanın ümumtəhsil məktəblərində müəllim və şagirdlərin say tərkibinin müqayisəsi göstərmişdir ki, məktəblərdə şagird kontingentinin 219.000 nəfər azalmasına baxmayaraq, müəllimlərin sayı 11.000 nəfər artmış, bu isə respublika üzrə müəllim/şagird nisbətinin 10,1-dən 8,4-ə düşməsinə səbəb olmuşdur. Heç bir ehtiyac olmadan müəllimlərin işə götürülməsi, onların sayının süni surətdə şişirdilməsi müəllimlərin əmək haqlarının artırılmasında və digər stimullaşdırıcı tədbirlərin həyata keçirilməsində problemlərin yaranmasına gətirib çıxarır.

2010/2011-ci tədris ilində respublikanın ümumtəhsil məktəblərində pedaqoji işçilərin işə qəbulu Təhsil Nazirliyinin 25 avqust 2009-cu il tarixli 1016 №-li əmrinə, 26.08.2008-ci il tarixli 1019 nömrəli əmrilə təsdiq olunmuş «Azərbaycan Respublikası Təhsil Nazirliyi sisteminin nomenklaturası» ilə müəyyənləşdirilmiş Qaydalara, 27 avqust 2008-ci il tarixli, 46-25-6062/16 nömrəli təlimati məktubuna və işə qəbul prosesinin tənzimlənməsi məqsədilə hazırlanmış reqlamentə uyğun test üsulu ilə keçirilən imtahan nəticələrinə əsasən həyata keçirilmişdir. Müəllimlərin işə qəbulu mexanizminin təkmilləşdirilməsi məqsədilə 12 iyun 2010-cu il tarixində beynəlxalq məsləhətçi Reks Kinder şöbəyə cəlb olunmuş, yuxarıda qeyd olunan normativ hüquqi sənədlər həmin beynəlxalq məsləhətçi ilə birgə ətraflı müzakirə edilmiş, mövcud problemlərin aradan qaldırılması yolları barədə ümumi nəticəyə gəlməklə müəyyən təkliflər verilmişdir.

Müəllimlərin işə qəbulu üzrə yeni reqlamentləşdirilmiş qaydalar, eyni zamanda, elektron resurslar tətbiq edilməklə "ULTRA" şirkəti tərəfindən işə qəbulun proqram təminatı hazırlanmışdır. Tətbiq edilən yeniliklərdən biri də Nazirliyin rəsmi internet saytında açılmış "Müəllimlərin işə qəbulu üzrə müsabiqə" bölməsində hər bir müəllim üçün fərdi səhifələrin açılmasıdır.

Belə ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsindən və yerli təhsili idarəetmə orqanlarından daxil olan vakant yerlər barədə məlumatlar toplanılaraq ətraflı araşdırılmış, Təhsil Nazirliyinin rəsmi İnternet saytında açılmış "Müəllimlərin işə qəbulu üzrə müsabiqə" səhifəsində və "Azərbaycan müəllimi" qəzetində elanların verilməsi təmin edilmişdir. Müsabiqədə iştirak etmək istəyənlər

elektron ərizələrlə müraciət etmiş, müvafiq sənədlər (kadrların şəxsi uçot vərəqi, diplomun surəti, əmək kitabçasının surəti, göstəriciləri təsdiq edən digər sənədlərin surəti və elektron ərizə forması) toplanılaraq araşdırılmış, həmin sənədlər əsasında və qəbul olunmuş meyarlara müvafiq olaraq ilkin qiymәyləndirmə aparılmış və göstəriciləri vakant yerlərin tutulması üçün qoyulmuş şərtlərə uyğun gələn və müəyyən olunmuş meyarlar üzrə keçid balı toplamış namizədlər müsabiqənin II mərhələsinə - imtahana buraxılmışlar.

Beləliklə, vakant yerlərə işə qəbul üzrə 06-17 sentyabr 2010-cu il tarixlərdə müvafiq kompüter proqramı vasitəsilə keçirilən test imtahanlarında 1815 müəllim iştirak etmiş, həmin kompüter proqramı tərəfindən nəticələr qiymətləndirilmiş və vakant yerlərə yerləşdirmə aparılmışdır. Məlumat üçün qeyd edək ki, sualların 80%-nə və daha çoxuna cavab verərək keçid balı toplamış kadrlar seçdikldəri məktəbdəki vakant yerlərə həmin məktəbin direktorunun əmri ilə ixtisasları üzrə müəllim təyin edilmişlər. Eyni zamanda, ümumtəhsil məktəblərindəki vakant yerlərə keçirilən müsabiqənin nəticələri və müvafiq məlumatlar Nazirliyin rəsmi internet saytında açılmış “Müəllimlərin işə qəbulu üzrə müsabiqə” bölməsində hər bir müəllim üçün müəyyənləşdirlən fərdi səhifələrdə yerləşdirilmişdir.

2010/2011- ci tədris ili üçün I və II istiqamətlər üzrə həvəsləndirmə tədbirlərinin tətbiqi nəzərdə tutulmuş, lakin təyinat zamanı vakant qalmış yerlərə (Şuşa, Lənkəran, Ağdam, Ağstafa, Ağcabədi, Oğuz, Qax, Qubadlı,Qəbələ, Daşkəsən, Zəngilan, Zərdab, Kəlbəcər, Kürdəmir, Goranboy, Göyçay, Laçın, Tərtər, Saatlı, Sabirabad, Salyan, Samux, Tovuz, Füzuli, Göygöl, Xızı, Xocalı, Hacıqabul, Şəmkir rayonları) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.04.201-cu il tarixli 67 №-li Qərarında nəzərdə tutulmuş tədbirlər tətbiq edilməklə 161 müəllimin işə qəbulu barədə Təhsil Nazirinin imzası ilə məktublar hazırlanaraq göndərilmişdir.

Ümumtəhsil məktəblərində və məktəbdənkənar təhsil müəssisələrində vakant direktor vəzifəsinə təqdim olunmuş namizədlərlə test imtahanın aparılması məqsədilə «Təhsil Qanunu», təhsilin idarəolunması ilə bağlı normativ huquqi sənədlər, kurikulum, yeni qiymətləndirmə mexanizmləri, informasiya və kommunikasiya texnologiyaları və s. ilə bağlı test sualları hazırlanmış və onların bazası yaradılaraq müvafiq kompüter proqramında yerləşdirilmişdir.

Məktəb və məktəbdənkənar təhsil müəssisəsi direktorlarının Nazirliyin uçot nomenklaturasına götürülməsi ilə əlaqədar rəhbərlik və struktur bölmə müdirlərinin daxil olduğu komissiyaya namizədlər barədə məlumatlarla birlikdə direktor vəzifəsi vakant olan məktəbdə şagirdlərin sayı, sinif komplektləri, məktəbin maddi-texniki bazası, kadr potensialı, tədris ilində ali və orta ixtisas məktəblərinə qəbul olunmuş şagirdlər, onların topladıqları ballar, olimpiada iştirakçıları, məktəbdə aparılan təmir-tikinti və s. barədə məlumatlar hazırlanaraq təqdim olunmuşdur. Vakant vəzifəyə namizədlərlə test yoxlama imtahanı aparılmış, suallardan 80 %-dək cavab verən namizədlərlə komissiyada qəbul edilərək söhbət aparılmış 91 namizəddən 22-nin məktəb direktoru təyin edilməsi məqsədə müvafiq hesab olunmamış, digərləri barədə isə komissiyanın çıxardığı qərara əsasən vəzifəyə təyinlərinin rəsmiləşdirilməsi üçün müvafiq məktublar hazırlanaraq R(Ş)TŞ-lərə göndərilmişdir. Eyni zamanda, stajçı və ya sınaq müddətinə dövlət qulluğu vəzifələrində çalışmış 35 dövlət qulluqçusunun hesabatları öyrənilərək onlara rəy bildirilmiş və rəhbərliyə təqdim edilmişdir. Rəhbərliyin rəyi, kurator nazir müavininin təqdimatı və hesabatları əsas götürülməklə «Dövlət qulluğu haqqında» Qanunun 28.6 maddəsinə uyğun olaraq onlarla sınaq müddətinə və ya daimi dövlət qulluğuna qəbulla bağlı əmək müqaviləsi bağlanmış və əmək münasibətləri əmrlə rəsmiləşdirilmişdir.

Respublikanın ümumtəhsil məktəblərində vakant direktor vəzifəsinin tutulması üçün təqdim olunmuş namizədlərin həmin vəzifəyə seçilib yerləşdirilməsinin təşkili məqsədilə «Təhsil haqqında» Azərbaycan Respublikası Qanunun, təhsilin idarəolunması ilə bağlı normativ hüquqi sənədlər, kurikulum, yeni qiymətləndirmə mexanizmləri və s sahələri əhatə edən test sualları hazırlanaraq yaradılmış test bazası kompyüterdə yerləşdirilmişdir. Cari ilin dekabr ayının 24-də respublikanın 48 məktəbində vakant direktor vəzifəsinə namizədlərlə Təhsilin Sisteminin İnformasiyalaşdırılması İdarəsinin bazasında test imtahanı keçirilmiş, onlar nazir tərəfindən qəbul edilərək, 25 sualdan 60% -nə cavab vermiş 36 nəfərinin təqdim olunduqları vəzifəyə təyinləri barədə təhsili yerli idarəetmə orqanlarına müvafiq məktublar hazırlanaraq

göndərilmişdir. Yerdə qalan 12 nəfərə isə test imtahanlarına hazırlaşmaq üçün yenidən vaxt verilmişdir.

Respublikanın məktəbəqədər tərbiyə müəssisələrində çalışan pedaqoji işçilərin (müdir, metodist, tərbiyəçi və musiqi rəhbərləri) faktiki tərkib quruluşunun analizi və işə qəbulu vəziyyətinin öyrənilməsi göstərmişdir ki, bəzi hallarda ştatlar heç bir ehtiyac olmadan bölünərək, eyni zamanda, məktəbəqədər təhsili olmayan kadrlar pedaqoji işə qəbul edilirlər. Bu isə öz növbəsində məktəbəqədər təhsilin keyfiyyətinə təsir edərək, onun aşağı düşməsinə səbəb olur.

«Təhsil haqqında» Azərbaycan Respublikasının Qanununda təhsil pillələrindən biri kimi müəyyənləşdirilmiş məktəbəqədər təhsil təhsilin ilk pilləsi kimi ailə və cəmiyyətin maraqlarını, o cümlədən uşaqların erkən yaş dövründə intellektual, fiziki inkişafının, istedad və qabiliyyətlərini aşkara çıxarmaqla yanaşı, beş (5) yaşdan başlayaraq uşaqların məktəbə hazırlığını da həyata keçirməlidir. Ona görə də digər təhsil pillələrində olduğu kimi, məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsi yollarından biri də yüksək uşaq bağçalarının ixtisaslı kadrlarla təmin edilməsidir.

Yuxarıda qeyd olunan nöqsanların aradan qaldırılması, məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafı və məktəbə hazırlığının yaxşılaşdırılması, pedaqoji işçilərin körpələr evi-uşaq bağçalarına qəbulunun səmərəli sisteminin yaradılması məqsədilə Təhsil Nazirliyinin 26 avqust 2008-ci il tarixli, 1019 nömrəli əmrində qismən dəyişiklik aparılmış və məktəbəqədər tərbiyə müəssisələrində tərbiyəçi vəzifəsi Nazirliyin uçot nomenklatırasına daxil edilmişdir.

Bununla əlaqədar, 2010/2011-ci tədris ilindən başlayaraq məktəbəqədər tərbiyə müəssisələrində pedaqoji kadrların işə qəbulu Təhsil Nazirliyinin sisteminin vəzifə funksiyaları barədə Nazirliyin müvafiq əmri ilə müəyyənləşdirilmiş Qaydalara uyğun həyata keçirilməsi üçün məktəbəqədər tərbiyə müəssisələrindəki vakant yer barədə rəsmi məlumat və şəxsi iş (işlər) təhsil şöbələri (idarələri) və Nazirliyin birbaşa tabeliyindəki məktəbəqədər tərbiyə müəssisəsinin rəhbərləri tərəfindən əlavə olunmuş formaya uyğun Təhsil Nazirliyinə təqdim olunması, vakant yerlər barədə məlumat və şəxsi işlər Nazirliyin aidiyyəti struktur bölməsi tərəfindən araşdırılması, təhsili, pedaqoji stajı, iş təcrübəsi əsas götürülməklə göstəriciləri qoyulmuş tələblərə cavab verən namizədin (və ya namizədlərin) nazirin müvafiq razılıq məktubu əsasında işəgötürən tərəfindən vakant yerə təyin olunmasının əmrlə rəsmiləşdirilməsi nəzərdə tutulmuşdur.

Məktəbəqədər tərbiyə müəssisəsində 1 ştat vahidi boş olduqda yerin vakant sayıldığı, məktəbəqədər tərbiyə müəssisəsində çalışan pedaqoji işçilər analıq məzuniyyətinə çıxarkən ilk növbədə müəssisədə çalışan ixtisaslı kadrlarla həmin müddətə əmək müqaviləsinin bağlanılmalı olduğu, təlimati məktubun tələblərinə ciddi əməl olunmasına görə yerli təhsili idarəetmə orqanları və məktəbəqədər tərbiyə müəssisə rəhbərlərinin bilavasitə məsuliyyət daşıdıqları onların nəzərinə çatdırılmışdır. Qeyd olunmuş normativ hüquqi sənədlərin tələblərinə uyğun olaraq Bakı Şərəri üzrə Təhsil İdarəsinin tabeliyindəki məktəbəqədər təhsil müəssisələrinə 54, Sumqayıt şəhər 48№-li körpələr evi – uşaq bağçasına 1 nəfər tərbiyəçinin işə qəbuluna razılıq verilməsi barədə məktublar hazırlanaraq göndərilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın təşkil etdiyi müsabiqə və müsahibələrlə bağlı Təhsil Nazirliyi sistemində 6-9-cu təsnifat vakant inzibati vəzifənin tutulması üçün məlumatlar hazırlanaraq həmin Komissiyaya göndərilmişdir. Komissiya tərəfindən 05 fevral 2010-cu il tarixdə müsabiqə müsahibə elan edilmiş və həmin yerlərdən 10 vəzifə müsahibəyə, 52 vəzifə isə müsabiqəyə çıxarılmışdır.

Təhsil Nazirliyi sistemində 6-9-cu təsnifat 52 vakant yerə 245 nəfər ərizə vermişdir. 6-cı təsnifat üzrə 10 yerə 172, 8-ci təsnifat üzrə 3 yerə 2, 9-cu təsnifat üzrə 39 yerə 71 nəfər ərizə vermiş, lakin 74 nəfər test imtahanından müvəffəqiyyətlə çıxmışdır. 74 nəfərlə aparılmış müsahibədən isə 13 nəfər müsbət nəticə əldə etmişdir. Təhsil Nazirliyində nazir həmin namizədləri qəbul edərkən onlardan 11 nəfəri iddia etdikləri vəzifələrə (Bakı ŞTİ–də baş hüquqşünas, Plan- maliyyə sektorunda məsləhətçi, Mühasibatlıq sektorunda baş məsləhətçi, Monitorinq və qiymətləndirmə sektorunda aparıcı məsləhətçi, İnformasiya texnologiyaları sektorunda məsləhətçi, Kürdəmir RTŞ-ində aparıcı məsləhətçi, Göyçay RTŞ-ində aparıcı məsləhətçi, Laçın RTŞ-ində məsləhətçi, Şuşa RTŞ-ində aparıcı məsləhətçi, Hacıqabul RTŞ-ində məsləhətçi) təyin olunmuş, 2 nəfər isə vəzifəni tutmaqdan imtina etdiklərinə görə adları ehtiyat

kadrlar siyahısına salınmaları üçün Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya göndərilmişdir.

Təhsil Nazirliyi sistemində 6-9-cu təsnifat vakant vəzifələrin müsahibə yolu ilə tutulması üçün elan olunmuş 10 vakant vəzifəyə 9 nəfər ərizə vermiş, lakin onlardan 3 nəfəri Əsgərov Vüqar Təhsil Nazirliyi İqtisadiyyat şöbəsi Plan-Maliyyə sektorunun müdiri, Alıyev Adil Laçın RTŞ-nin müdir müavini, Əliyev Sabir Lənkəran ŞTŞ-nin aparıcı məsləhətçisi vəzifələrinə müsahibədən müvəffəqiyyətlə çıxaraq müvafiq vəzifələrə təyin edilmişlər.

Təhsil Nazirliyi sistemində dövlət qulluğu vəzifələrində işlə təmin edilmələri məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən adı ehtiyat kadrlar siyahısına salınmış 142 nəfərin siyahısı və onlar barədə ətraflı məlumat Təhsil Nazirliyinə göndərilmişdir. Onların sənədləri diqqətlə araşdırılmış və 3 nəfərin Məmmədov Qafar, Quliyeva Mehriban Bakı Şəhəri üzrə Təhsil İdarəsində, Məmmədova Səkinəxanım isə Təhsil Nazirliyində işlə təmin olunmuşlar.

Biləsuvar RTŞ-nin müdir müavini və Bakı Şəhəri üzrə Təhsil İdarəsində baş məsləhətçi vəzifələrinə müsahibədən keçməmiş namizədlərin apellyasiya şikayətinə baxılmış və onların iddiaları təmin edilməmişdir.

Təhsil Nazirliyi sistemində 6-9-cu təsnifat inzibati vakant vəzifələrin siyahısı hazırlanaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya göndərilmişdir. 21 oktyabr 2010-cu il tarixdə elan olunmuş müsabiqəyə 67 yer, müsahibəyə isə 2 yer çıxarılmışdır. Müsabiqəyə çıxarılmış 67 yerə 148 nəfər, müsahibəyə 2 nəfər ərizə vermişdir. Şəki RTŞ-də vakant müdir müavini vəzifəsinə sənəd vermiş namizəd müsahibədən keçməsə də, Ə.Qənbərov müsahibədən müvəffəqiyyətlə çıxaraq Biləsuvar RTŞ-nin müdir müavini vəzifəsinə təyin edilmişdir,

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya Təhsil Nazirliyinə məktub göndərərək «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikası Qanununun 28-29-cu maddələrinə uyğun dövlət orqanlarında inzibati vəzifələrin 6-9-cu təsnifatına daxil olan vakant vəzifələrin tutulması məqsədilə müsahibələrin keçirilməsində əsas götürüləcək müsahibə proqramı və həmin proqramın tərtibi zamanı istifadə olunmuş ədəbiyyatların siyahısını hazırlayaraq təqdim olunmasını xahiş etmişdir. Müsahibə proqramının hazırlanmasında məqsəd keçirilən müsahibələrə namizədlərin daha yaxşı hazırlaşmalarını, müsahibələrin səmərəliliyinin artırılmasını və subyektivliyin qarşısının alınmasını təmin etməkdən ibarətdir.

Hazırlanmış müsahibə proqramı Təhsil Nazirliyinin ümumi təyinatı və Nazirliyin struktur bölmələrinin fəaliyyət istiqamətlərini əhatə edərək 2 hissədən ibarət olmaqla, hər bir hissə həm nəzəri, həm də qanunvericilik biliklərini yoxlamağa imkan verən mövzulardan təşkil olunmuşdur..

Təhsil Nazirliyinin ümumi təyinat üzrə proqramına Nazirliyin ümumi fəaliyyəti üzrə mövzular (məs: Nazirliyin yaranması, məqsədləri, fəaliyyət istiqamətləri, reallaşdırılan layihələr və s.) daxil edilmişdir. Həmin mövzuların tərtibində asan əldə edilən mənbələrdən, yəni normativ hüquqi aktlar, dərsliklər, əsasnamələr, Nazirliyin rəsmi internet saytından ədəbiyyat kimi istifadə olunmuşdur. Struktur bölmənin fəaliyyəti ilə bağlı proqramda isə şöbədə, o cümlədən vəzifənin icrası zamanı görülən işlərlə bağlı zəruri biliklərin yoxlanması üçün mövzular öz əksini tapmışdır..

Əlavə olaraq Təhsil Nazirliyi sistemi üzrə 6-9-cu təsnifat inzibati vakant vəzifələrin tutulması üçün keçirilən müsahibələr zamanı namizədlərə veriləcək suallar həmin proqram çərçivəsindəki mövzulardan kənara çıxmağa imkan vermədiyinə görə kifayət qədər ətraflı və dəqiq hazırlanmışdır.

Təhsil Nazirliyinin, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin və yerli təhsili idarəetmə orqanlarında 6-9-cu təsnifat vakant vəzifələrin tutulması zamanı namizədlərə dövlət qulluğu üzrə zəruri qanunvericiliyə, Təhsil Nazirliyinin ümumi təyinatı və vakan vəzifənin aid olduğu sahə üzrə müsahibə proqramları, onlara aid ədəbiyyatların siyahısı aidiyyəti struktur bölmələri ilə birlikdə işlənib hazırlanmış və DQMK-ya təqdim olunaraq bazaya yerləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil olmuş məktuba əsasən 06.03-30.07.2009-cu il tarixlərdə vakant inzibati vəzifələrin siyahısı, vakansiyalar, ştat

vahidləri, həmin dövrdə dövlət qulluğuna qəbul olunmuş namizədlər, ehtiyat kadrlar siyahısına daxil edilmiş və ya oradan işə təyin olunmuş kadrlar barədə ətaflı məlumat, müvafiq cədvəl və sənədlər hazırlanaraq Prezident Administrasiyasına təqdim edilmişdir.

Həmçinin, "Dövlət qulluqçularının reyestrinin aparılması Qaydaları"na uyğun olaraq Nazirliyin mərkəzi aparatında struktur və ştat cədvəlində aparılmış dəyişikliklər və dövlət qulluqçuları barədə yeni məlumatlar mütəmadi olaraq mərkəzləşdirilmiş kompüter proqramı vasitəsilə məlumat bazasına daxil edilmiş və həmin məlumatlar Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya və Prezident Administrasiyasına göndərilmişdir.

2010-cu ilin hər yarımilliyində Nazirliyin mərkəzi aparatında çalışan dövlət qulluqçularının sayı, ixtisas dərəcələri, yaşa, cinsə və qulluq stajına görə tərkibi analiz edilərək hazırlanmış hesabat Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Nərimanov şöbəsinə təqdim olunmuşdur.

Eyni zamanda, Nazirliyin mərkəzi aparatında çalışan dövlət qulluqçularının qulluq stajından asılı olaraq əmək haqlarına əlavələrin hesablanaraq ödənilməsi üçün hər ay müvafiq təqdimat və əmrlər hazırlanmışdır.

Azərbaycan Respublikasının Statistika Komitəsindən «2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı»nın müvafiq bəndlərinin icrası ilə bağlı hazırlanmış «İşəgötürənlərin ali ixtisas təhsilinə malik olan mütəxəssislərə tələbatının öyrənilməsinə dair seçmə statistik müayinə anketi» layihəsinə təkliflər hazırlanaraq təqdim olunmuşdur.

Eyni zamanda, Nazirliyin mərkəzi aparatında çalışan dövlət qulluqçularının qulluq stajından asılı olaraq əmək haqlarına əlavələrin hesablanaraq ödənilməsi üçün hər ay müvafiq təqdimat və əmrlər hazırlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən 15-19 fevral 2010-cu il tarixində mərkəzi icra hakimiyyəti orqanlarının məsul əməkdaşları üçün təşkil olunmuş insan resurslarının idarə edilməsi üzrə təlimdə (Kleraus Rimas) iştirak edilmişdir. Təlimdə insan resurslarının elmi əsasları, onların xüsusiyyətləri və müasir tendensiyalar barədə məlumat verilmiş, kadrların idarəolunmasında planlaşdırma, onların seçilməsi və fəaliyyətlərinin qiymətləndirilməsi, rəhbərin nüfuzunun və ona inamın artırılması, hədəflərin müəyyənləşdirilməsi, məqsəd və tapşırıqların formalaşdırılması, iş vaxtının idarəolunması ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Dövlət qulluqçularının peşə bayramı münasibəti ilə keçirilən «Dövlət qulluğunun aktual problemləri» mövzusunda elmi praktik konfrans keçirilmiş və şöbənin əməkdaşları həmin konfransda iştirak etmişdir.

Həmçinin, Avropa Birliyi tərəfindən maliyyələşdirilən Rəhbərlik və İdarəetmənin Təkmilləşdirilməsinə Dəstək (Siqma) Təşkilatı, İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın 07 dekabr 2010-cu il tarixdə birgə təşkil etdiyi «Dövlət qulluğunda insan resurslarının idarə edilməsi sahəsində qanunçuluq və məcburilik» mövzusunda seminar keçirilmiş və şöbənin əməkdaşları həmin seminarda iştirak etmişdir.

Yerli təhsili idarəetmə orqanlarında çalışan dövlət qulluqçuları, vakant ştatlar barədə məlumatlar toplanaraq kompüterdə yaradılmış məlumat bazası ilə tutuşdurulmuş və vakant vəzifələrin tutulma qaydaları dəqiqləşdirilmişdir.

"Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və Türkiyə Respublikasının Dövlət Kadrlar İdarəsi arasında 2010-2011-ci illər üçün əməkdaşlıq üzrə Fəaliyyət Proqramı"na əsasən hər iki ölkənin dövlət orqanları arasında 28.11-04.12.2010-cu il tarixlərində təcrübə mübadiləsinin aparılması məqsədilə təşkil olunmuş görüşdə "Azərbaycan Respublikasının təhsil sisteminin inkişaf perspektivləri" mövzusunda prezentasiya və Türkiyənin 18 dövlət orqanın məsul işçilərinin Nazirlikdə rəhbər əməkdaşları ilə görüşü keçirilmiş, onları maraqlandıran suallar cavablandırılaraq aktiv dialoq təşkil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 04 sentyabr 2007-ci il tarixli 2373№-li Sərəncamı ilə təsdiq olunmuş «Ən yaxşı ümumtəhsil məktəbi» və «Ən yaxşı müəllim» mükafatının təsis edilməsi ilə bağlı müsabiqə keçirilmiş və şöbənin əməkdaşı Kəmalə Mirzəyeva

həmin müsabiqədə informatika fənni üzrə nəzarətçi funksiyasını yerinə yetirmişdir. İnformatika müəllimlərinin keçdikləri dərslər dinlənirək həmin dərslərin müzakirə olunması, rəylər ümumiləşdirilərək qiymətləndirilmilməsində obyektivliyin təmini və prosesin düzgün tənzimlənməsi üçün şəraitin yaradılmasına nəzarət edilmişdir.

2010-cu ilin oktyabr-noyabr aylarında bütün rayon təhsil şöbələrindən məktəb şəbəkəsi ilə bağlı hesabatlar qəbul edilmiş, rayonda kadra olan tələbat, müəllim/şagird nisbəti, ümumtəhsil məktəblərində şagird və müəllim sayının dəyişməsi səbəbləri araşdırılaraq, rəy bildirilmişdir. Eyni zamanda, rayonların ümumtəhsil məktəblərindən məktəbdəki ştatlı, əvəzçi, saathesabı müəllimlərin sayını, müəllim/şagird nisbəti, sinif komplektlərinin pillələr üzrə sayını, kadrların təhsil səviyyəsi üzrə bölgüsünü, işə qəbul olunan və işdən çıxarılan kadrların sayını, onların dərs saatına, cinsinə, yaşına görə bölgüsünü, ixtisasartırma və yenidənhazırlanma təhsilinə cəlbini, təyinat vasitəsilə iş yerinə gəlmiş kadrlar barədə məlumatları əhatə edən kadrların faktiki tərkib quruluşu və kadrlara olan real tələbat barədə hesabatlar toplanılmışdır. Kadrlara olan real tələbat barədə hesabat forması ümumi təhsil məktəblərində tədris olunan fənlər üzrə ştatlı, əvəzçi, saathesabı qaydasında işləyən müəllimlər, hər hansı fənn üzrə təyinat yerinə gələn və kadra olan tələbat barədə məlumatların əldə edilməsi, problemlərin aradan qaldırılması üçün atılacaq addımların istiqamətlərinin müəyyənləşdirilməsinə imkan yaradır.

Cari ildə şöbəyə 4857 ərizə, 1404 məktub daxil olmuşdur ki, onların 589-dan artıq əmri hazırlanmış, 1299-dan artıq ərizə və 668- dək məktub icra olunmuşdur.

2010-cu ildə təhsil sistemində çalışmış 165-dən artıq işçiyə «Əmək veteranı» kitabçası verilmişdir.

**Y**uxarıda qeyd edilən məsələlərlə yanaşı, cari ildə Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən Təhsil Sektorunun İnkişafı üzrə İkinci Layihənin (2009-2014-cü illər) «Pedaqoji kadrlar üçün əlavə təhsilin müasirləşdirilməsi» komponenti çərçivəsində də xeyli işlər görülmüşdür məlumat üçün qeyd edək ki, layihə üçün ayrılmış 45.4 milyon ABŞ dolları həcmində olan vəsaitin 15.1 milyonu bu komponent üçün nəzərdə tutulmuşdur. Həmin komponentin “İcra planı”nda zəruri əlavə və dəyişikliklər edilmiş, bunun üçün Layihənin Əlaqələndirmə Qrupunda (LƏQ) müvafiq məsləhətləşmə və müzakirələr aparılmış, həmçinin “İxtisasartırma təhsilində xidmətlərin təklifi sahəsində rəqabət mühitinin yaradılması” istiqamətində beynəlxalq və milli məsləhətçi ilə birgə nəzərdə tutulmuş normativ-hüquqi sənədlərin layihələri işlənib hazırlanmış, konkret olaraq beynəlxalq və milli məsləhətçi, işçi qurupun üzvləri ilə birlikdə **“**Əlavə təhsilin məzmunu, təşkili və ixtisasartırma təhsili almış şəxslərə müvafiq sənədin verilməsi qaydası”, “Ümumi təhsil və ilk peşə-ixtisas təhsili müəssisələrində işləyən müəllimlərin ixtisasartırma təhsilinin Kurikulum Çərçivəsi” işlənib hazırlanmışdır.

Qeyd edək ki, “Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi qaydası” sənədinin Nazirlər Kabinetinin 6 sentyabr 2010-cu il tarixli, 163 nömrəli qərarı ilə qəbul edilmişdir. Həmin sənədin elan edilməsi ilə əlaqədar əmr layihəsi hazırlanmış, həmçinin 25 noyabr 2010-cu il tarixdə Təhsil Nazirliyində “Əlavə təhsillə bağlı qarşıda duran vəzifələr” mövzusunda təqdimat xarakterli müşavirə keçirilmiş və şöbənin əməkdaşlarl həmin müşavirədə iştirak etmişlər.

“Azərbaycan Respublikası dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institutlaşma) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)”nın həyata keçirilməsi ilə əlaqədar nəzərdə tutulmuş təşkilati tədbirlərdən biri də uşaq evləri və internat tipli təlim-tərbiyə müəssisələri bazasında uşaqlar üçün ailə əsaslı sosial xidmət mərkəzlərinin və alternativ xidmətlər sisteminin, ümumtəhsil internat məktəblərinin bazasında ümumi təyinatlı ümumtəhsil məktəblərinin, lisey və gimnaziyaların yaradılması, həmçinin sağlamlıq imkanları məhdud uşaqlar üçün internat tipli təlim-tərbiyə müəssisələrinin bir hissəsinin reabilitasiya mərkəzlərinə çevrilməsidir. Bu məqsədlə yeni yaradılacaq təhsil müəssisələrində müvafiq ixtisaslar üzrə sosial işçilərin hazırlanması üçün Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun bazasında “Sosial iş” ixtisası üzrə yenidənhazırlanma təhsilinin təşkili ilə əlaqədar nəzərdə tutulmuş işlər yerinə yetirilmişdir. Həmçinin, 2010-2011-ci dərs ilində

yenidənhazırlanma təhsilinə sənəd təqdim edənlərin şəxsi işlərinin araşdırılması və onların müsahibəyə buraxılmasına dair təklif verilmişdir.

**Əlavə təhsil üzrə:**

Cari il ərzində əlavə təhsil sahəsində aşağıdakı digər məsələlər və proseslər icra olunmuş, həyata keçirilmiş və xeyli işlər yerinə yetirilmişdir:

**1.** Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunun yeni strukturu işlənib hazırlanmış və bu sahədə müvafiq təkliflər verilmişdir.

**2.** Məktəblərdə işləyən praktik-psixoloqların 13, 14 və 15-ci ödəmə dərəcələri ilə əmək haqlarının hesablanması məqsədilə onların daha mürəkkəb psixokorreksiya və psixodiaqnostika əməliyyatları keçirilməsi üçün xüsusi ixtisasartırma mexanizmi işlənib hazırlanmış və müvafiq təhsil müəssisələrinin mütəxəssislərinin müzakirəsinə təqdim edilmişdir.

**3.** AMİ-nin bazasında bütün əlavə təhsil müssisələrinin professor-müəllim heyətinin iştirakı ilə «Təhsil menecerləri» tədris-tematik planın müzakirəsi təşkil edilmiş, orada qeyd olunan mövzuda geniş çıxış olunmuş və tətbiq üçün müəyyən tövsiyyələr edilmişdir.

**4.** Yenidənhazırlanma qaydalarının təzədən işlənib hazırlanması üçün təkliflər paketi tərtib olunmuş və rəylərin toplanması üçün aidiyyəti təhsil müəssisələrinə göndərilmişdir.

2010/2011-ci tədris ilində yenidənhazırlanma təhsili üçün sənədlərin qəbulunun tənzimlənməsi ilə əlaqədar baza ixtisasları müəyyənləşdirilmiş və əmrlə təsdiq olunmuşdur.

**5.** Dərs ilinin başlanması ilə əlaqədar ayrı-ayrı müəssisələrin yenidənhazırlanma təhsilinin təşkili ilə bağlı tənzimləyici sənədlər işlənib hazırlanmış və əmrlə təsdiq olunmuşdur.

**6.** Əlavə təhsil üzrə fəaliyyət göstərən təhsil müəssisələri və fakültələrin təqdimatına əsasən yenidənhazırlanma təhsilinə sənəd təqdim etmiş müdavimlərin tərkibi dəqiqləşdirilmiş, müsahibəyə buraxılanlar barədə Nazirliyin razılıq məktubu hazırlanmış və yerlərə göndərilmişdir.

**7.** Azərbaycan Müəllimlər İnstitutunun filiallarında əlavə təhsillə bağlı monitorinq keçirilmiş və onların AMİ-də hesabatları dinlənilmişdir.

**8.** AMİ-nin müvafiq qurumları ilə birlikdə yerli təhsili idarəetmə orqanları və əlavə təhsil müəssisələrinin qarşılıqlı müqavilə öhdəliklərinin yerinə yetirilməsi vəziyyəti öyrənilmiş və bununla bağlı nəticələr təhlil olunmuşdur.

**9.** Rusiya Federasiyasına ezamiyyə zamanı Rusiya Elm və Təhsil Nazirliyindən əldə edilmiş sənədlər əsasında geniş təhlil aparılmış, bu sənədin əldə edilmiş təcrübədən ölkəmizdə istifadə olunması imkanları barədə təkliflər təqdimat formasında Nazirliyin rəhbərliyinə təqdim edilmişdir.

**10.** Əlavə təhsil üzrə görülmüş işlərin nəticəsində 2010-cu ildə 18.000 nəfərə yaxın dinləyici ixtisasartırma təhsilinin üçaylıq, ikiaylıq, 24 günlük, 12 günlük, 6 günlük kurs və seminarlarına cəlb olunmuş, əlavə təhsil müəssisələrinin professor-müəllim heyətinin, aparıcı metodiki korpusunun yerli təhsili idarəetmə orqanlarının sifarişləri və məqsədli ezamiyyələri zamanı yüzlərlə pedaqoji işçi ilə seminarlar, treninqlər, görüşlər təşkil edilmişdir.

Əldə edilmiş müsbət təcrübələrin, ənənələrin davam və inkişaf etdirilməsinin nəticəsidir ki, Azərbaycan Respublikası Təhsil Nazirliyinin 24.10.2009-cu il tarixli kollegiyasında əlavə təhsil sahəsində görülən işlər yüksək qiymətləndirilmişdir.

**11.** Əlavə təhsil sahəsində 2010-cu tədris ilində təşkil edilmiş kurs və seminarların qrafik hesabatının təhlili göstərir ki, yerli təhsil orqanlarının, təhsil müəssisələrinin heç də hamısında ixtisasartırma təhsilinə birmənalı münasibət yoxdur.

Aparılan təhlillər sübut edir ki, ixtisasartırma təhsilinin məzmunu, keyfiyyəti yüksəldikcə dinləyici kontingentinin əhatə dairəsi genişlənir, yerli sifarişlərin sayı artır. Dərs ili ərzində Salyan, Qəbələ, Bərdə, Tərtər, Sumqayıt, Bakı təhsil orqanlarının sifarişləri əsasında həmin təhsil orqanlarının bazasında, AMİ-nin Zaqatala, Mingəçevir filiallarında keçirilən yerli seminar – treninqlər rəğbətlə qarşılanmışdır.

**12.** Cari ildə uzun illərdən bəri həllini gözləyən tədris bazası şəbəkəsi AMİ-nin rəhbərliyinin səyi ilə Təhsil Nazirlyində təsdiq edilmiş, Bakı və Sumqayıt şəhərlərinin, Abşeron rayonunun aparıcı 23 təhsil müəssisəsi tədris bazası kimi təsdiq olunmuşdur.

**13.** Məlum olduğu kimi, hazırda AMİ və onun filiallarında tətbiq edilən pedaqoji kadrların ixtisasartırma təhsili üçün tədris-tematik planlar 2007-ci ildə AMİ-nin Elmi Şurasında təsdiq olunmuşdur. Həmin dövrdən keçən müddət ərzində Azərbaycan Respublikasının Təhsil Qanunu qəbul olunmuş və əlavə təhsil sahəsində yeni mexanizmlər yaradılmış yeni strukturlar təsis edilmişdir. Azərbaycan Respublikasının Milli Təhsil Konsepsiyasının (Milli Kurikulum) təhsil sisteminə tətbiqi başlanmış və digər təhsil sahələrində yeni mexanizmlər yaradılmışdır. Belə ki, tətbiq olunan tədris-tematik planların təkmilləşdirilməsi zərurəti meydana çıxmış, pedaqoji kadrların ixtisasartırma təhsilinin tədris-tematik planlarının təkmilləşdirilməsi üçün işçi qrupu yaradılmışdır. İşçi qrupu AMİ-nin kafedraları ilə birlikdə həmin tədris-tematik planları yeni variantda təkmilləşdirmişdir.

**14.** Əlavə təhsil sahəsində 2010-cu ilin qrafiki tərtib edilərək həmin ilin yanvar ayında təhsil orqanlarına göndərilmişdir.

Bağlanmış müqavilələrə əsasən 2011-ci il 20.000 nəfər pedaqoji kadrın kurslara cəlb olunması proqnozlaşdırılmışdır.

**15.** Yeni dərs ilində institutun digər qurumları kimi, əlavə təhsil sahəsi də yeni tərtibat və təchizat cəhətdən zənginləşdirilmiş maddi-texniki və tədris bazası ilə işə başlamışdır.

Belə ki, «Təhsilin əsasları» fənni üzrə kursu 61 nəfər, «Həyati bacarıqlara əsaslanan» seminarı 70 nəfər bitirmiş, ali məktəb müəllimlərinin üçaylıq, orta ixtisas məktəblərinin ikiaylıq kurslarında 90 nəfər ixtisasartırma təhsilinə cəlb edilmişdir.

**16.** Əlavə təhsilin strukturunda, məzmununda, formalarında dislokasiyadan, kateqoriyalardan asılı olaraq müəyyən dəyişikliklər edilmişdir.

Tədris ili ərzində təqdim etdikləri hesabatlardan görünür ki, əlavə təhsil sahəsində hər təhsil müəssisəsinin dislokasiyasına daxil olan rayonlarda çalışan pedaqoji kadrların sayı ilə kurs və seminarlara cəlb edilənlərin sayı arasında xeyli fərq yaranır. Təqdim olunan hesabtlar göstərir ki, 2010-cu tədris ili ərzində ixtisasartırmaya cəlb edilənlərin illik təkibi 400-500 nəfər çoxluq təşkil edir. Dayaq məntəqələrində təkmilləşdirməyə cəlb edilənlərin sayı daha çoxdur. Lakin bu gün dayaq məntəqələrinin həm özünün fəaliyyəti, həm də filiallarımızın onlarla əlaqəsi günün tələbləri ilə ayaqlaşmır.

**17.** Əlavə təhsilin məzmununda müsbət dəyişikliklər yaratmaq məqsədilə əlavə təhsil müəssisələrinin rəhbərləri ilə məsləhətləşmələr aparılaraq müxtəlif tədbirlər müəyyənləşdirilmişdir. Belə ki, AMİ-də və onun 11 filiallarında fəaliyyət göstərən kabinetlərin işinin analizi, proqnozu və mövcud vəziyyətini öyrənib, «Ən yaxşı kabinet» müsabiqəsi keçirilmişdir.

**18.** Cari ildə orta ixtisas təhsili məktəblərində monitorinq keçirilmiş və nəticələr təhlil edilmişdir.

Bu məqsədlə şöbənin əməkdaşı Musa Əhmədov Bakı şəhərində 2, Gəncə şəhərində 3, Qazax, Tovuz və Quba rayonlarında bir (1) təhsil müəssisəsində ezamiyyədə olmuş, buna müvafiq olaraq arayış hazırlanmış və Nazirliyin ali və orta ixtisas təhsili şöbəsinə təqdim edilmişdir.

Azərbaycanın təhsil sisteminin inkişafında əvəzedilməz yeri olan pedaqoji kadrların əlavə təhsilinin həyata keçirilməsində seçilmək, uğur qazanmaq üçün rəqabət mühiti yaranmışdır. Müəssisələr arasında tədris-maddi bazasına, kadr potensialına görə rəqabət apara biləcək müəssisələr çoxdur. Bu gün təhsil sistemində çalışan bütün kadr potensialını auditoriya şəraitində əlavə təhsilə cəlb etmək qeyri-mümkündür. Amma təhsilini artırmadan, təhsil sistemindəki yeniliklərdən xəbər tutmadan uğur qazanmaq olmaz. Əlavə təhsilin çevik formalarını axtarıb tapmaq, dayaq məntəqələrinin fəaliyyətini canlandırmaq, metodik korpusun təhsil müəssisələrində çalışanlarla əlaqələrini genişləndirmək, distant təhsil üçün əməkdaşlıq mühiti yaratmaq və s. əlavə təhsil sahəsində çalışan hər bir əməkdaşın qarşısında duran problemdir. Əlavə təhsil sahəsində icraya nəzarətin gücləndirilməsi bu fəaliyyətin kəmiyyət və keyfiyyət göstəricilərinin yaxşılaşdırılması üçün ən zəruri şərtdir.

Nəticə olaraq bildirmək istərdik ki, il ərzində ölkə səviyyəsində təhsil nailiyyətlərini yüksəltmək məqsədilə inkişaf etdirilə biləcək sahələrin müəyyənləşdirilməsi üçün təhlillər

aparılmış, təhsil siyasəti və strategiyasının müəyyənləşdirilməsi məqsədilə, həyata keçirilmiş və hazırda həyata keçirilən islahatlar barədə Hesabatlar, təhsil sektorunun ayrı-ayrı sahələri üzrə inkişaf proqramları, ölkədə təhsilin inkişafı ilə əlaqədar beynəlxalq və yerli qeyri-hökümət təşkilatların Hesabatları təhlil edilmiş və müvafiq təkliflər hazırlanmışdır.